

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Bir QADIN tanıdıq...

*Bir QADIN tanıdıq: ləyaqətli ailənin övladı, ləyaqətli ailənin gəlini, həyat yoldaşı, ana, ziyalı, ictimai xadim. Ən əsası isə gözəl insan, gözəl xanım.*



4

SƏS

№ 153 (7079)

24 avqust 2024-cü il.
Qiymәti 60 qәpik

# Bir kökün iki qolu: Azərbaycan-Özbəkistan!



2

*Prezident İlham Əliyev: "Bu gün biz rəsmən Özbəkistanın müttəfiqi olduq"*

# Azərbaycan azad və demokratik seçki keçirmək ənənəsinə sadiqdir



5

## Qələbəlik süfrələrdən virtual əsirliyə gedən yol



15

## Milli ruhumuzun qidası – Muğam



10

## Şirniyyatdan anidən İMTİNA: QORXULU NƏTİCƏLƏR?



11

## Hasarların tikintisinə görə icazə qaydaları necədir?



16

## Mərkəzi Asiya uğrunda ABŞ-Aİ və RF-ÇXR arasında döyüş güclənir




13





# Bir kökün iki qolu: Azərbaycan-Özbəkistan!

***Tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. Özbəkistan Cənubi Qafqaz regionunda əsas tərəfdaş kimi qəbul etdiyi Azərbaycanla əməkdaşlığın dərinləşməsinə xüsusi əhəmiyyət verir. Azərbaycan-Özbəkistan münasibətləri Cənubi Qafqaz və Mərkəzi Asiya regionunda bərqərar olan sabitliyin və davamlı inkişafın təmin edilməsində də mühüm rol oynayır. İki ölkə arasında bu vaxtadək imzalanmış çoxsaylı sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb.***

Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir. Bu gün Öbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik olan ölkəyə çevrilib.

## "DAŞKƏNDDƏ HƏQİQƏTƏN DƏ MÜNASİBƏTLƏRİMİZİN YENİ FƏSLİNİ DEYİL, KİTABINI YAZIRIQ"

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana növbəti səfəri iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında tarixi hadisə olmaqla yanaşı, dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni mərhələnin başlancıcıdır. Səfər çərçivəsində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin "Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Müqavilə"ni imzalamaları dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni səhifənin açılması deməkdir. "Müttəfiqlik münasibətlərinə dair müqavilə iki ölkənin imzalaya biləcəyi ali səviyyədə beynəlxalq sənəddir. Biz bu gün Daşkənddə həqiqətən də münasibətlərimizin yeni fəslini deyil, kitabını yazırıq. Bu gün iki qardaş xalq, iki müstəqil, güclü, suveren, nüfuzlu dövlət rəsmi müttəfiq oldu. Bu, çox mühüm xarici siyasət addımıdır və gələcək illərdə münasibətlərimizi, həmçinin bir çox hallarda regional siyasəti müəyyən edəcək". Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə mətbuata bəyanatında bildirib. Azərbaycan Prezidenti bəyan edib ki, "Özbəkistan təkcə regionda deyil, həm də dünya miqyasında yüksək siyasi nüfuza malik ölkəyə çevrilib. Biz buna səmimi-qəlbdən sevinirik. Şavkat Miromonoviçin müdrik siyasətinin son təzahürü özbək idmançılarının Yay Olimpiadasında tarixi uğuru oldu. Onlar çoxlu medal qazandılar, onlardan 8-i qızıldır. Həmçinin müsəlman ölkələri arasında birinci və dünyada 13-cü yeri tutdular. Bu, tarixi nailiyyətdir"

## *Prezident İlham Əliyev: "Bu gün biz rəsmən Özbəkistanın müttəfiqi olduq"*





## "REGİONLARIMIZDA MÜSBƏT PROSESLƏR DAŞKƏND İLƏ BAKI ARASINDA SƏMƏRƏLİ ƏMƏKDAŞLIQDAN ASILIDIR"

Ticari-iqtisadi münasibətlər ikitərəfli əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Bu sahədə əməkdaşlıq azad ticarət rejimində həyata keçirilir və iqtisadiyyatın müxtəlif sahələrini əhatə edir. Özbəkistan və Azərbaycan investisiya sahəsində əməkdaşlığın inkişaf etdirilməsində müəyyən uğurlar əldə etmişdir. Hər iki ölkənin nəqliyyat-tranzit potensialı böyükdür və bu sahədə əlverişli infrastruktur yaradılıb. Bu mənada, Mərkəzi Asiyadan Xəzər dənizinə, daha sonra Qafqaz vasitəsilə Qara dəniz və Aralıq dənizi limanlarına gedən nəqliyyat marşrutları xüsusi aktuallıq kəsb edir. Özbəkistan-Azərbaycan birgə biznes forumları, eləcə də iqtisadi sahədə həyata keçirilən digər tədbirlər sayəsində əməkdaşlığın yeni sahələri müəyyən edilmiş və bir sıra uğurlar qazanılmışdır. "Regionlarımızda müsbət proseslər Daşkənd ilə Bakı arasında səmərəli əməkdaşlıqdan asılıdır" – deyən Prezident bildirib ki, bu gün Mərkəzi Asiya, Cənubi Qafqaz, Xəzər regionları vahid geosiyasi regiona çevrilir və regionlarımızda müsbət proseslər Özbəkistan ilə Azərbaycan arasında səmərəli əməkdaşlıqdan asılıdır. Tarixə söykənən Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış 160-dan çox sənəd, o cümlədən Strateji tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına dair Bəyannamə bu əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb. Azərbaycanın Özbəkistan, eləcə də digər Orta Asiya ölkələri ilə gündən-günə daha da möhkəmlənən əməkdaşlığı həm ölkələrimizin və xalqlarımızın, həm də bütün türk dünyasının inkişafına əhəmiyyətli töhfələr verməkdədir.

## İKİ DÖVLƏT ARASINDA UĞURLU ƏMƏKDAŞLIQ ÜÇÜN MÖHKƏM TƏMƏLƏ MALİK HÜQUQ-MÜQAVİLƏ BAZASI

Dövlət başçısının Özbəkistana səfəri çərçivəsində imzalanan sənədlər gələcəkdə əməkdaşlığın daha da inkişaf etdirilməsi, dostluq və tərəfdaşlıq münasibətlərinin möhkəmləndirilməsində öz sözünü deyəcəkdir. Bütün bunlar iki dövlət arasında uğurlu əməkdaşlıq üçün möhkəm təmələ malik hüquq-müqavilə bazasına təkandır.

***Ardı Səh. 3***



Əvvəli-Səh-2

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev ”Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının birinci iclasının Qərarı”nı qəbul ediblər. Daha sonra ”Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi ilə Özbəkistan Respublikasının Ekologiya, Ətraf Mühitin Mühafizəsi və İqlim Dəyişikliyi Nazirliyi yanında Turizm Komitəsi arasında 2024-2026-cı illər üzrə turizm sahəsində Fəaliyyət Planı” ”Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi ilə Özbəkistan Respublikasının Mədəniyyət Nazirliyi arasında 2024-2026-cı illər üçün mədəni-humanitar əməkdaşlıq üzrə Yol xəritəsi”, ”Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Məktəbəqədər və Ümumi Təhsil Nazirliyi arasında məktəbəqədər və ümumi təhsil sahəsində əməkdaşlıq haqqında Protokol”u, ”Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi ilə Özbəkistan Respublikasının Ali təhsil, Elm və İnnovasiyalar Nazirliyi arasında peşə təhsili, orta ixtisas, ali təhsil və elm sahəsində əməkdaşlıq haqqında Protokol”u, ”Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə Özbəkistan Respublikasının Ədliyyə Nazirliyi arasında 2024-2026-cı illər üzrə Əməkdaşlıq Proqramı”, ”Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında Özbəkistan Respublikası ərazisində müvəqqəti işləyən Azərbaycan Respublikası vətəndaşlarının və Azərbaycan Respublikası ərazisində müvəqqəti işləyən Özbəkistan Respublikası vətəndaşlarının əmək fəaliyyəti və hüquqlarının müdafiəsi haqqında Saziş” və digər sənədlər imzalanıb. Səfər çərçivəsində, həmçinin Bakı (Azərbaycan) ilə Daşkənd (Özbəkistan), Beyləqan (Azərbaycan) ilə Şəhrisəbz (Özbəkistan), Quba (Azərbaycan) ilə Cizak (Özbəkistan) şəhərləri arasında regionlararası əməkdaşlıq haqqında sənədlər və ”Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə ”Uzbekneftegaz” SC arasında Əsas Şərtlər Sazişi” imzalanıb. Bütün bunlar iki dövlət arasında uğurlu əməkdaşlıq üçün möhkəm təməl malik hüquq-müqavilə bazasına təkandır.

# Bir kökün iki qolu: Azərbaycan-Özbəkistan!

### ”İSTƏR İŞĞAL DÖVRÜNDƏ, İSTƏRSƏ DƏ İKİNCİ QARABAĞ MÜHARİBƏSİ İLLƏRİNDƏ VƏ SONRA ÖZBƏK XALQININ QARDAŞ DƏSTƏYİNİ HİSS ETMİŞİK”

Hazırda iki ölkə arasında hərtərəfli və strateji tərəfdaşlıq münasibətləri mövcuddur. Dövlətlərarası münasibətlərdə imzalanan sənədlər, bəyanatlar mühüm rol oynayır. İki ölkə arasında münasibətlər yüksələn xətlə inkişaf edir. İqtisadi sahədə də əlaqələr inkişafdadır. Ticarət-iqtisadi, kənd təsərrüfatı, energetika, səhiyyə, nəqliyyat-logistika, ətraf mühitin mühafizəsi, dövlət xidmətlərinin göstərilməsi, mədəni-humanitar, sosial və turizm sahələrində əməkdaşlığın gücləndirilməsi ilə bağlı razılıq əldə olunub.

Azərbaycanın suverenliyinin bərpa olunması işində Özbəkistanın və özbək xalqının dəstəyini qeyd etməliyik. Füzulidə Özbəkistan Prezidentinin və xalqının hədiyyəsi olan məktəbin açılışı münasibətlərin inkişafında öz sözünü deyir. Özbəkistan Prezidenti Şavkat Mirziyoyev tərəfindən özbək xalqı adından hədiyyə olaraq Füzulidə inşa edilən məktəb 960 şagird yerlikdir. Tikinti işləri yüksək keyfiyyətlə həyata keçirilib. Üç hektar ərazidə inşa edilən məktəb binası iki mərtəbə və zirzəmidən ibarətdir. Məktəbdə 40 sinif otağı, 6 laboratoriya, 2 informatika otağı, 5 funksional tədris otağı, 500 yerlik akt zalı, idman zalı, 320 yerlik yeməkxana, kitabxana var. Məktəbin həyətyanı ərazisində futbol meydançası, istirahət və keçiriləcək tədbirlər üçün yerlər, qaçış zolaqları, söhbətgahlar, nəzarət-buraxılış məntəqəsi, qazanxana, su çənləri, transformator yarımstansiyası inşa edilib. Bu məktəbin inşası qardaş ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən xəbər verir. Azərbaycan Prezidenti İlham Əliyev də Özbəkistanın Füzuli rayonunda böyük məktəb inşa etmək təşəbbüsünü ölkələrimiz arasında həmrəyliyin, dostluğun, qardaşlığın növbəti addımı kimi qiymətləndirib: “Xankəndidə yüngül sənaye müəssisəsinin yaradılması Azərbaycan və Özbəkistan xalqlarının qardaşlığının və dostluğunun rəmzidir”.





Azərbaycan Prezidenti İlham Əliyev mətbuata bəyanatında bildirib ki, özbəkistanlı həmkarı Şavkat Mirziyoyevlə danışıqlarda işğaldan azad olunmuş Xankəndi şəhərində yüngül sənaye müəssisəsinin yaradılması layihəsini müzakirə edib. ”Yalnız mühüm olan bir layihəni ayrıca qeyd etmək istərdim. Bu, işğaldan azad olunmuş Xankəndi şəhərində yeni yüngül sənaye müəssisəsinin yaradılması ilə bağlıdır. Bu, xalqlarımızın qardaşlığının və dostluğunun daha bir rəmzidir. Biz həmişə - istər işğal dövründə, istərsə də İkinci Qarabağ müharibəsi illərində və sonra özbək xalqının qardaş dəstəyini hiss etmişik. Mən bu gün bu barədə danışmışam, Özbəkistan ilk ölkədir ki, Prezidentin təşəbbüsü ilə bizə təkcə mənəvi dəstək göstərməklə yanaşı, həm də azad olunmuş ərazilərin bərpasında kömək edib”.

Özbəkistan Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Prezidentinin Özbəkistana dövlət səfərini iki ölkə arasında çoxəsrlik dostluq münasibətlərinin inkişafında tarixi hadisə adlandırıb və dövlətlərarası qarşılıqlı fəaliyyətin möhkəmləndirilməsində yeni mərhələnin başlandığını bildirib. Özbəkistanın dövlət başçısı Azərbaycan Prezidenti ilə mətbuata bəyanatında deyib: “Bu gün hörmətli İlham Heydər oğlu ilə müttəfiqlik münasibətlərinə dair müqavilə imzaladıq. Bu sənəd dövlətlərarası qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsində yeni səhifənin açılması ilə əlamətdar olacaq. Biz bununla çoxplanlı tərəfdaşlığımızın hərtərəfli inkişafı kursuna möhkəm sadiqliyimizi təsdiq etdik”.

Dünən həmçinin Azərbaycan Respublikasının birinci xanımı Mehriban Əliyeva və Özbəkistan Respublikasının birinci xanımı Ziroatxon Mirziyoyeva Daşkənddə “Mexrli” məktəbi ilə tanış olublar. Bəli, Azərbaycan-Özbəkistan əlaqələri bu gün yeni dövrün reallıqlarına uyğun olaraq sürətlə inkişaf etdirilir. İki ölkə arasında bu vaxtadək imzalanmış xeyli sayda sənəd tərəfdaşlığın dərinləşdirilməsi və hərtərəfli əməkdaşlığın inkişafına möhkəm hüquqi baza yaradıb. Təbii ki, qarşılıqlı səfərlər, bu səfərlər çəçivəsində aparılan müzakirələr, imzalanan sənədlər əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Bir QADIN tanıdıq...

***Bir QADIN tanıdıq: ləyaqətli ailənin övladı, ləyaqətli ailənin gəlini, həyat yoldaşı, ana, ziyalı, ictimai xadim. Ən əsası isə gözəl insan, gözəl xanım. Bir QADIN tanıdıq... Zərifliyi həm də xarakterinə yansıyan, incəliyi ruhuna da hopan, gözəl baxışları həm də qəlbinin mərhəmətini ifadə edən QADIN... Bir QADIN tanıdıq... Zərif çiyinlərində Azərbaycanın-qədim bir dövlətin milli-mənəvi, mədəni irsini daşımaqla dünya ölkələrinə təqdim edən, bu dəyərlərin əbədiyaşar olmasına can yandıran QADIN. Bir QADIN tanıdıq... Böyük bir dövlətə 20 il ləyaqətlə rəhbərlik edən dövlət başçısının həyat yoldaşı kimi daim Onun yanında olan QADIN. Bizdə belə bir deyim var ki, hər bir qadının arxasında güclü bir kişi olmalıdır. Bu deyimin sonunu belə gətirsəydik, daha doğru olardı: hər bir kişinin yanında da güclü bir qadın olmalıdır. Bu güc sevgidir. Bu güc qadın hərarəti ilə uzunömürlü olan ailədir. Bu güc hər bir kişinin tutduğu mövqedə rahatlıqla çalışmasıdır. Çünki ağır bir iş gününün sonunda onu isti bir yuva, o yuvada sevdiyi, hörmət və sayğı bəslədiyi qadın-həyat yoldaşı və övladları gözləyir. Bu güc ailədir. İnsanın iş və şəxsi həyatının tamlığı olan ailə. Hansı ki, zaman da sübut edib ki, ailə olmadan insan həyatın ən yüksək pilləsinə qalxsa belə, natamamdır...Bir QADIN tanıdıq: ləyaqətli bir ailənin övladı, ləyaqətli bir ailənin gəlini, həyat yoldaşı, ana, ziyalı, ictimai xadim-Mehriban xanım Əliyeva.***



### Ləyaqətli ailənin övladı

Bir QADIN tanıdıq... Ləyaqətli bir ailənin övladı QADIN. Azərbaycanda mətbuatın, jurnalistikanın, jurnalist ordusunun formalaşmasında böyük əməyi olan, jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının əziz, unudulmaz müəllimi, hər bir jurnalistin dəyərlisi Nəsir İmanquliyevin və yazıçı, ədəbiyyatşünas, onlarla əsərin müəllifi, lakin "Bir gəncin manifesti" ilə Azərbaycan gəncliyinin sonsuz sevgisini qazanan Mir Cəlal Paşayevin nəvəsi QADIN. Ölkəmizdə radiofizika sahəsində böyük nailiyyətlərə imza atan Arif Paşayev və şərqşünaslıq və ədəbiyyatşünaslığın "anası" Aidə İmanquliyeva kimi ziyalıların qızı QADIN...Kök, nəsil, ailə güzgüdür. Kök, nəsil ailə nədir, sən də osan, başqa cür mümkün deyil. Bu qədər ləyaqətli insanların əhatəsində təbii ki, Mehriban xanım kimi dünyaya fərqli baxan və dünyanı fərqli görmək istəyən, ziyalılığın ali mərtəbəsində dayanan, baba-nənələrdən, ata-anadan mənəvi dəyərləri, ən əsası isə insanlığı əxz edən QADIN yetişəcəkdi. Bir vaxtlar bu baba-nənələrin sığalı qətiyyəti, mərhəməti, əzmi damla-damla Onun dünyasına sızdırıb zamanında bu QADINın gücünə çevirəcəkdi. Bu güc baba-nənə, ata-ana mənəviyyatının, ziyalılığının, ictimai fərqliliyinin davamçısı kimi bizə Mehriban xanım Əliyevanı tanıdacaqdı.Bu kökdə həm də bir azərbaycanlı məxsusluğu var axı. Azərbaycan qadınının müasir dövrdə davamçısı olmaq da bu məxsusluqdan irəli gəlir. Şücaət, qəhrəmanlıq, hökmdar, hətta sərkərdə, döyüşçü, diplomat olmaq qabiliyyətini çoxəsrlik tariximizə yazmağı bacaran, kişilərdən ağlı-zəkası, hünəri ilə heç də geridə qalmayan qürur yerimiz olan Azərbaycan qadını. Kişilərlə qoşa yay çəkən, qurşaq tutub güləşən Burla xatun, Banu Çiçək, Selcan xatun, ağıl-zəkası ilə tarixə iz salan hökmdar Tomris ana kimi Azərbaycan qadını. Hünər rəmzi olan Mehrican, Möminə xatun, Nigar, Tuti Bikə, Nüşabə, Həcər xanımlar, Gültəkinlər, Salatınlar, Arəstələr kimi Azərbaycan qadını. Ziyalılığı ilə qürur duyduğumuz, mərhəmətli həkim, qayğıkeş ana, Ümummilli Liderimizə özünün də söylədiyi kimi, gözəl həyat yoldaşı olan Zərifə xanım Əliyeva və tək bir kəlmə ilə, xalqına Mehriban xanım kimi övlad bəxş edən Aidə İmanquliyeva kimi Azərbaycan qadını. Saymaqla bitməyən yüzlərlə Azərbaycan qadını... Və bizim mehriban və əziz Mehriban xanım kimi Azərbaycan QADINı.

### Ləyaqətli ailənin gəlini

Bir QADIN tanıdıq... Gözəl ailə dəyərləri ilə birlikdə Ümummilli Liderimiz Heydər Əliyevin və dəyərlimiz Zərifə xanımın evinə gəlin köçən QADIN. Həyatını Azərbaycan xalqının müstəqilliyinə, bu müstəqilliyin daimiliyinə, ölkənin inkişafına həsr edən Ulu Öndərimizin və insanlara nur paylayan, hər bir xəstəsinin ağrılarını onunla birlikdə yaşayan, xəstəsinin həm həkimi, həm də ən yaxını olan Zərifə xanımın gəlini olmaq böyük şərəf idi. Bu şərəfə bu gün haqqında qürurla danışdığımız Mehriban xanım nail oldu. Çünki xalqımızın belə bir deyimi də var: gəlin ocağa gələr. Bəli, Mehriban xanım öz ata ocağı ilə eyni gücdə, eyni istilikdə, hərarətdə olan ocağa gəlmişdi. Bu ocaqda Onun sevdiyi, könlünü verdiyi, həyatının birgə davamı üçün əhd-peyman etdiyi İlham Əliyev böyümüşdü. Bu ocaqda gələcəkdə Azərbaycanda sönən onlarla ocağı yenidən alovlandıran övlad tərbiyə almışdı. Bu ocaqla Mehriban xanımın ata ocağı ona görə oxşar idi ki, hər ikisində Azərbaycan naminə insanlar yaşayırdı. Onların hər birinin amalı, qayəsi Azərbaycanın bu günü və gələcəyinin işığı üçün idi.

Bu ocaqda hər bir azərbaycanlının Prezidenti olan cənab İlham Əliyev ailənin dəyərləri müstəvisində böyüdülmüşdü. Elə ata vəsiyyətinin bir oğul üçün nə qədər əhəmiyyətli olması da Ona ailəsində aşılanmışdı. O vəsiyyət ki, onu 2020-ci ilin 44 günlük Vətən müharibəsində- 8 noyabrda-Şuşanın işğaldan azad olunduğu gün dövlətimizin başçısının dilindən eşitdik. Eşitdik ki, Ulu Öndərimiz oğlunun qarşısında bir vəzifə qoyub. Bu, bir vəzifə ilə yanaşı, həm də ata vəsiyyəti idi: torpaqlarımızın azad edilməsi ilə bağlı vəsiyyət. Elə məhz bu vəsiyyətin mövzusu bir ailənin nə qədər vətənpərvər olduğunun, bu dövlət və xalq naminə yaşadığının göstəricisi idi.

### Həyat yoldaşı və ANA

Bir QADIN tanıdıq... Həyatını Ulu Öndərin siyasi və mənəvi varisi, dövlətimizə 20 il ərzində ləyaqətlə rəhbərlik edən cənab İlham Əliyevlə birləşdirən QADINı. Ömür-gün yoldaşına qırılmaz tellərlə bağlı, sədaqət mücəssəməsi olan, əxlaqi və mənəvi dəyərləri bu ocağın şöləsi QADINı. Zərifliyi ilə zövqü bir harmoniyada ürək kimi döyünən, yeri gələndə kəlağayılı, yeri gələndə milli, yeri gələndə ən müasir dəbli, yeri gələndə olduğu məkana uyğun geyimlə ətrafa qadın gözəlliyi saçan QADINı tanıdıq. Səsinin tonu ilə danışıq mimikaları üzündə bir başqa gözəllik yaradan Mehriban xanımı tanıdıq. Belə bir qadının həyat yoldaşı olmaqda dövlətimizin başçısının xoşbəxtliyini və şansını gördük.Bir QADIN tanıdıq... Əliyevlər ocağına Leylanı, Arzunu, Heydəri bəxş edən, bu ocaqda ANA adına layiq görülən QADINı tanıdıq. O ocağa bu QADINın laylaları ilə nəvə sevinci bəxş olundu. Bu ocaqda nəvələrin varlığı ilə ən gözəl anlar, unudulmaz xatirələr yaşandı. Onların gəlişi ilə bu ocağın çırtıltısı çoxaldı, çünki onlar evə qucaq dolu sevinc, gülüş, qəhqəhə gətirmişdilər.Bir Qadın tanıdıq... Övladlarını hər iki baba-nənələrinin adına layiq tərbiyə edib böyüdən QADIN. Onların qayğısı ilə yaşayan, hər birinin hər çağırışına "can" deyən QADIN. Hər birinin ilk qığıltısına, ilk addımına görə dünyalar bəxş olunan QADIN. Daha sonra uşaqların məktəb həyatı, dərslər, tapşırıqlar, oxumaq, təhsil almaq. Hər bir ana olan bilir ki, bu, tək ananın nəzarəti ilə mümkündür. Uşaq xəstələndimi, bir yeri ağrıdımı, onlarla adam olsun, bunun ağırlığını, əziyyətini ana qədər çəkən olmur. Bu səbəbdən də əsl ANA olan QADINı-Mehriban xanımı tanıdıq. Üç övladını layiqincə böyüdən, qayğıları ilə gecəni səhər, səhəri axşam edən, bu gün zəhmətinin bəhrəsi ilə qürur duyan QADINı tanıdıq.

### Ziyalı və ictimai xadim

Bir QADIN tanıdıq... Ziyalı, elmli, maarifli bir QADIN. "Ağlım kəsəndən bəri başqa alternativim olmayıb. Anam şərqşünas-alim idi. Azərbaycan Elmlər Akademiyasının Şərqşünaslıq İnstitutuna başçılıq etmişdir. Lakin məktəbi bitirdikdən sonra sənədlərini tibb institutuna vermişdi, çünki çox istəyirdi ki, həkim olsun. Nəyə görəsə valideynləri onu uzun müddət dilə tutmuşlar və nəticədə o, görkəmli filoloq olmuşdur. Bax onun bu baş tutmamış arzusu mənim seçimimi müəyyənləşdirmişdir. İxtisas seçimimə isə İlhamın anası – həkim-oftalmoloq Zərifə xanım təsir göstərmişdir" deyən, ailəni, ailə dəyərlərini üstün tutan və qiymətləndirən QADINı tanıdıq. Anasının arzusunu, qayınanasının yolunu davam etdirən Mehriban xanımı tanıdıq. Dünyaya həkim, həm də göz həkimi gözü ilə baxan, bəzən dünyanın korluğuna üsyan edən, bəzən bu korluğu müalicə etməyə çalışan, bəzən gözlərin açılmasına, haqqı, ədaləti görməsinə yardımçı olan, bəzənsə gözlərinin açılması mümkün olmayanlara bu ədaləti başqa yollarla anladan QADINı tanıdıq.Hər zaman həyat yoldaşının yanında olacaq, dövlətimizin başçısına bütün işlərdə kömək edəcək QADINı tanıdıq. Bu qadın çox keçməyəcəkdi ki, bir həyat yoldaşı, ana missiyasından Azərbaycanın Birinci Xanımı titulunadək ucalıb Birinci vitse-prezident kimi dövlət işlərində də həyat yoldaşının yanında olacaqdı. Onun sədaqətli həyat yoldaşı olması ilə yanaşı, həm də sadiq dost, ləyaqətli iş yoldaşı olduğunu görəcəkdik. Gündəlik həyatda, hətta müharibə meydanında həyat yoldaşının yanında görəcəkdik. Bu zəriflik mücəssəməsi QADIN milli ordumuzun uni formasını geyinib həyat yoldaşı ilə yenicə azad edilmiş torpaqlarımızda gəzərkən, daşı daş üstündə qalmayan yurdlarımızın inkişafına öz zövqündən, məharət və bacarığından töhfə verərkən həm də qorxmaz, hünərli bir QADINı tanıdıq.44 günlük müharibə zamanı hər şəhidə, hər qaziyə balası qədər yanan, hər bir qarış torpaq azad edildikcə sevincini, qürurunu xalqı ilə paylaşan, müharibədə sağlamlığını itirən iştirakçıları xəstəxanalarda tez-tez ziyarət edən Mehriban xanım Əliyevanı-qadınlığın, zərifliyin, mərhəmətin, təəssübkeşliyin ifadəsini tanıdıq. Bu gün Qarabağ və Şərqi Zəngəzurun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun da yaxından iştirakı ilə bərpa olunmasını, məcburi köçkünlərin ata-baba ocaqlarına qayıdışını böyük sevinclə qarşılayan və bütün bu işlərdə həyat yoldaşının yanında olan Mehriban xanımı tanıdıq. Nə yaxşı da ki, bu QADINı tanımışıq. Hər bir Azərbaycan vətəndaşına diqqət və qayğı ilə yanaşan, yüzlərlə xəstənin şəfası, yüzlərlə müraciəti yerindəcə həll edən, humanistliyin, insanpərvərliyin rəmzi QADINı.

### Şəkillər "danışır"...

Bəzən uzaqdan-uzağa da insanı tanımaq mümkündür. Təbii ki, haqqında eşitməklə. Lakin budur, qarşımda yüzlərlə şəkli var Mehriban xanımın. Bu şəkillər dil açıb bu QADINdan danışır. Azərbaycanın Birinci Xanımından, Onun fəaliyyətindən söhbət açır. Onu daha yaxından tanımaq üçün yetərlidir bu şəkillər məncə...Budur, Mehriban xanım uşaq bağçası açılışındadır. Əli körpələrin saçlarını oxşayır, təbəssümü onların uşaq dünyasını güldürür. Budur, Mehriban xanım məktəb açılışındadır. Adı kimi mehriban baxışları ilə şagirdlərlə danışır, onlara yaradılan şərait gözlərindən yağan sevinclə ifadə olunur...Budur, Mehriban xanım sağlamlıq imkanları məhdud olan uşaqlarla bayram tədbirindədir. Onlardan biri qucağındadır, digəri çiyninə sarılıb, əlləri o birinin saçlarında gəzir. Valideyn himayəsindən məhrum olan bu uşaqlar Onunla ana istiliyini, hərarətini hiss edirlər. Sevinirlər, bu tədbirin bitməsini əsla istəmirlər.Budur, Mehriban xanım şəhid anası ilə görüşür. Yaşlı qadının əlləri əlinin içindədir. Ananın göz yaşlarını silir Mehriban xanım. Onunla kədərlənir, onunla qürurlanır, onunla şəhidin anası, candan yananı olur.Budur, Mehriban xanım könüllülərlə, idmançılarla, tələbələrlə... görüşür. Onların hər birinə məxsusi bir sevgi verir. Şəkil çəkdirir, qucaqlayır, söhbət edir.Və yüzlərlə belə şəkillər... Dil açıb Mehriban xanımın səmimiyyətindən, insanpərvərliyindən, duyğularından danışır. Hər bir şəkil yeni bir hadisə. Hər bir hadisə yeni bir səmimiyyət. Hər bir şəkil "yaxşı ki tanımışıq" dediyimiz QADINın bir gözəl keyfiyyəti...Bir QADIN tanıdıq... Yaxşı ki, tanıdıq. Hələ qarşıda Onun həyata keçirəcəyi böyük işlərdən, layihə və tədbirlərdən çox danışacağıq. Çünki Mehriban xanımın amalı və məqsədi Azərbaycan xalqının xoşbəxt gələcəyi, nurlu sabahıdır...

***Mətanət Məmmədova***

# Azərbaycan azad və demokratik seçki keçirmək ənənəsinə sadiqdir



***Azad və demokratik cəmiyyətin mövcudluğunu təsdiq edən əsas amillərdən bir də seçkilərin xalqın iradəsi əsasında keçirilməsidir. Ölkəmiz dünyanın aparıcı dövlətlərindən biri olaraq seçki prosesinə xüsusi önəm verir və seçkilərin, azad və şəffaf şəkil də təşkil edilərək, həyata keçirilməsinə çalışır. Bu baxımdan da dünyanın əksər ölkələri, eləcə də nüfuzlu beynəlxalq təşkilatlar Azərbaycanda baş tutan seçkiləri yüksək qiymətləndirib və alqışlayıb.***

Əminliklə demək olar ki, 2024-cü il sentyabrın 1-ə təyin edilmiş növbədənkənar parlament seçkiləri də beynəlxalq prinsiplərə və Azərbaycanın qanunvericiliyinə əsasən azad və demokratik şəraitdə keçiriləcək. Bunun üçün MSK-nın və müvafiq dövlət qurumlarının həyata keçirdiyi işlər də təqdirə layiqdir. Bilikli, savadlı seçki komissiyalarının üzvlərinin mövcudluğu ilə yanaşı, seçki məntəqələrinin hər cür texniki avadanlıqlarla təchiz olunmasında prosesin müsbət məcrada inkişaf etməsinə dəstəyini nümayiş etdirir. Əhalinin və seçkiləri müşahidə edəcək şəxslərin seçki bilgiləri də yüksək səviyyədədir. Bu da MSK-nın ardıcıl olaraq treninqlər təşkil etməsi, maarifləndirici bukletlər, kitabçalar hazırlayaraq paylaması da xüsusi rol oynayıb.

İtaliyanın SWG SPA şirkəti seçkiöncəsi 15 iyul - 15 avqust aralığında yerli respondentlər arasında keçirdiyi sorğuya əsasən, əhalinin 81%-i parlament seçkiləri ilə bağlı maraqlandıqlarını deyiblər. Aparılan sorğunun nəticələri ilə bağlı mətbuat konfransında İtaliyanın SWG SPA şirkətinin nümayəndəsi Solene Le Moing bildirildi ki, respondentlərin 21%-nin parlament seçkiləri ilə çox maraqlandığını, 13% o qədər də maraq göstərmədiyini, 5% maraqlı olmadığını, 1% isə bilmirəm dediyini bildiriblər. Respondentlərin 57%-i seçkidə iştirak edəcəyini, 27%-i çox gümanki, 6% xeyr, 10%-i isə bilmirəm cavabını verib.Bundan başqa respondentlərin 91%-i Qarabağ bölgəsindəki bərpa işlərinin mükəmməl, 4%-i yaxşı, 3%-i yetərli, 1%-i yetərsiz, 1%-i isə bilmirəm cavabı verib. Solene Le Moing onu da bildirdi ki, Azərbaycanda seçki öncəsi keçirilən sorğu digər Avropa ölkələrində keçirilən eyni sorğu metodologiyası əsasında qurulub və bütün müvafiq mərhələlərdən keçib: "Azərbaycanda keçirilən sorğuda suallar sosial, iqtisadi, siyasi və digər sahələri əhatə edib. Hazırkı nəticələr ilə sentyabrın 1-də keçiriləcək seçkinin "Exit-pol" nəticələri müqayisə olunacaq". Solene Le Moing qeyd etdi ki, sorğu şəhər və rayonlar olmaqla bütün əraziləri əhatə edib: "SWG SPA işçi heyəti Azərbaycanda keçirilən seçki prosesini yaxından izləyəcəklər. Exit-pol və sorğular üzbəüz, əyani şəkildə həyata keçiriləcək. Qeyd edək ki, bu gün təqdim edilən nəticələr avqustun 2-i və 7-i keçirilən sorğuların nəticələridir. Belə ki, parlament seçkiləri ilə bağlı vəziyyətlə əlaqədar suallara respondentlərin 81 faizi seçki prosesinə maraq göstərdiyini, 21 faiz isə "çox maraqlı" olduğunu bildirib. Həmçinin 13 faiz seçki prosesinə "o qədər də maraq göstərmədiyini", 5 faizi isə "maraq göstərmədiyini" bildirib".

Təqdirəlayiq məqamlardan biri də ondan ibarətdir ki, MSK sağlamlığı məhdud insanların, o cümlədən də gözdən əlillərində seçkilərdə iştirakının təmin edilməsi və onların seçki ilə bağlı məlumat bazalarının artırılması üçün hər cürü vacib işləri həyata keçirib. "Gözdən əlilliyi olan seçicilərin sərbəst səs vermələri üçün 125 seçki dairəsinə trafaret veriləcək". Bu sözləri Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov bildirib. Onun sözlərinə görə, ümumilikdə 2471 seçki məntəqəsində panduslar quraşdırılıb.

### Siyasi partiyalar seçkilərdə fəal iştirak edir

Yaradılan demokratik şəraitdən cəmiyyətin bütün təbəqələri, o cümlədən siyasi partiyalar bəhrələnməyə çalışır. Verilən açıqlamalara görə, parlament seçkilərində ümumilikdə 24 siyasi partiyadan 200-ə yaxın şəxs seçkilərdə iştirak etmək üçün namizədliyini irəli sürüb. edib. Ən çox namizədlə çıxış edən partiya isə Cənubi Qafqazın lider partiyası olan Yeni Azərbaycan Partiyasıdır. Yeni Azərbaycan Partiyası (YAP) sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri üzrə 125 seçki dairəsinin hamısından öz namizədini elan edib. Bu barədə qərar YAP İdarə Heyətinin iyulun 17-də keçirilən iclasında qəbul edilib.YAP sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib ki, sentyabrın 1-də keçiriləcək növbədənkənar parlament seçkiləri xalqın Yeni Azərbaycan Partiyasına inamının növbəti ifadəsi olacaq. Cəmiyyət də YAP-ın böyük nüfuza malik partiya olduğunu nəzərə alsaq sentyabrın 1-də keçiriləcək parlament seçkilərinin mütləq qalibinin YAP olacağı şübhəsizdir. Bunu şərtləndirən əsas amillərdən biri də YAP-ın qurucusunun Ulu Öndərimiz Heydər Əliyevin olması və bu hü də partiyaya Prezidentimiz İlham Əliyevin rəhbərlik etməsidir. Fateh Sərkərdə, Prezident İlham Əliyevin rəhbərliyi ilə Yeni Azərbaycan Partiyası ölkəmizin ən qabaqcıl nümayəndələrini öz sıralarında birləşdirərək müstəqil Azərbaycan dövlətinin qurulması yolunda geniş, çoxşaxəli fəaliyyət göstərir. Bu və digər amillərə əsaslanaraq birmənalı şəkil də qeyd etmək olar ki, parlament seçkilərində deputatlığa namizədlər xalqın dəstəyini qazanacaq və növbəti dəfə YAP alternativi olmayan qalib partiya olduğunu nümayiş etdirəcək.

Seçki prosesinin hazırlanması və keçirilməsi prosesində fəal iştirak edən yerli və xarici müşahidəçilər siyasi partiyaların fəallığını və namizədlərin təbliğatını yüksək qiymətləndirirlər. Hətta beynəlxalq təşkilatların nümayəndələri yerlərdəki seçki məntəqələrinin seçki hazırlığının yüksək olmasından məmnun olduqlarının bildirirlər. Seçkiləri 300-dən çox müşahidəçi ilə izləməyə hazırlaşan ATƏT-in Demokratik Təsisatlar və İnsan Haqları Bürosunun müşahidəçiləri namizədlərə bərabərhüquqlu şəraitin yaradıldığını və seçki prosesinin qanunvericiliyin tələbinə uyğun təşkil olunduğunu qeyd edirlər. "DTİHB müşahidəçiləri 84 saylı Füzuli Seçki Dairəsində olublar. Onlar seçki məntəqələrinə baş çəkib, seçkiyə hazırlıq prosesini izləyiblər. Heç bir neqativ hal qeydə alınmayıb, hər şey qanunvericiliyə uyğun şəkildə həyata keçirilir. 1211 yerli müşahidəçi də səsvermə prosesini izləmək üçün dairədə qeydiyyatdan keçib". Bunu "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında 84 saylı Füzuli Dairə Seçki Komissiyasının sədri Yavər Məmmədov deyib. DSK sədri bildirib ki, dairə üzrə qeydiyyatda olan 54 min 246 seçici sentyabrın 1-də keçiriləcək Milli Məclis seçkilərində 78 məntəqədə səsvermə hüququndan istifadə edə bilərlər. Səsvermə hüququndan ilk dəfə istifadə edəcək 583 seçici var: "Seçkinin şəffaf şəkildə keçirilməsi üçün qanunvericiliyə uyğun şəkildə bütün şərait yaradılıb. Dairədə 8 namizəd mübarizə aparır. Namizədlərin seçkiqabağı təşviqat kampaniyası davam edir. Namizədlər təşviqat materiallarını məntəqələrdə quraşdırılmış lövhələrə asır, o cümlədən, qapalı və açıq görüş yerlərində seçicilərlə görüşür".DSK sədri 7 seçki məntəqəsində veb-kameranın, 11 məntəqədə isə pandusların quraşdırıldığını qeyd edib.



### Xaricdəki azərbaycanlılar seçki prosesinin təbliğində fəal iştirak edirlər

Harada və nə işlə məşğul olmasından asılı olmayaraq dünya azərbaycanlıları Vətənləri olan Azərbaycanda keçiləcək parlament seçkilərində fəal iştirak etməyə çalışırlar. Onların yaşadıqları ölkələrdə 1 sentyabr parlament seçkiləri ilə bağlı mətbu orqanlarda, TV-lərdə mütəmadi çıxışları, seçkinin təşkili və gedişinə dair öz fikir və təəssüratlarını bildirmələri qeyd olunanlara misal ola bilər. "Sentyabrın 1-də Milli Məclisə seçkilərin azad olunmuş əraziləri də ilk dəfə əhatə etməsi dünya azərbaycanlıları olaraq bizi qürurlandırır. Bu, bərpa olunan ərazi bütövlüyümüzdə suverenliyimizin təmin edildiyinin növbəti faktıdır. O cümlədən, Azərbaycanın bütün ərazisində vətəndaşların seçki hüququnun təmin edilməsi olaraq tarixi hadisədir. Bunu "Seçki 2024" Seçki Müstəqil Media Mərkəzinə açıqlamasında Ukraynanın Dnepropetrovsk Vilayəti Azərbaycanlıları Konqresinin sədri Nəcəf Əhmədov deyib. Diaspor təşkilatının sədri bildirib ki, Azərbaycanın demokratik seçki ənənəsi sentyabrın 1-də beynəlxalq standartlara uyğun seçkinin keçiriləcəyinə əminlik yaradır: "Ukraynadakı azərbaycanlılar Vətənimizdə baş verən prosesləri yaxından izləyirlər. Hazırda davam edən seçkiqabağı təşviqat kampaniyasının demokratik qaydalara uyğun, qanuni şəkildə aparıldığını, namizədlərə bərabər şəraitin yaradıldığını görürük. Ölkədə demokratik seçki mühiti var. Bu mühit ölkə sərhədlərindən kənarda da aydın görünür".

"Xaricdə yaşayan azərbaycanlılar olaraq sentyabrın 1-də keçiriləcək parlament seçkilərini yüksək qiymətləndiririk. Bu seçkilər Azərbaycan üçün bir ilkdir, tarixi hadisədir. Uzun müddət ərzində işğal altında olan torpaqlarımızda Milli Məclisə seçkilər üzrə səsvermə keçirilməmişdi. İndi Şuşada, Xankəndidə və digər tarixi torpaqlarımızda seçki məntəqələri yaradılıb və insanlarımız öz doğma torpaqlarında səs verəcəklər. Xaricdə yaşayan azərbaycanlılar kimi bu bizi çox sevindirir və qürurverici bir hadisədir". Bu barədə "Seçki 2024" Müstəqil Media Mərkəzinə açıqlamasında Eskişəhir Azərbaycanlılar Dərnəyinin sədri və Türkiyə Azərbaycan Dərnəkləri Federasiyasının sədr müavini Cavid Aydın deyib.O bildirib ki, Azərbaycan artıq yeni bir dönəmə qədər qoyub: "Yeni parlament ölkəmizin gələcək inkişafını ehtiva edən məsələlərin çevik həlli üçün addımlar atacaq. Bu seçkilərin xalqımıza, Vətənimizə xeyirli olmasını diləyirəm".

Bir sözlə, hər zaman uğurlu, demokratik fəaliyyəti və işləri ilə nümunə olan Azərbaycan bu dəfə də ənənəsinə sədaqətli olacaq. Bir daha azad və demokratik seçki keçirilməsinə nail olmaqla növbəti zəfər tarixi yazacaq.

***İLHAM ƏLİYEV***

# Qarabağ möcüzəsi: dağlarında nə sərvətlər yatır?

***Qarabağ bölgəsi yeraltı sərvətləri ilə yanaşı yerüstü təbii sərvətlərlə də zəngindir. Regionda bitən 460-dan artıq yabanı və kol bitkilərinin 70-i endemikdir, yəni, dünyanın başqa heç bir yerində təbii mühitdə bitmir. Bu məqaləmizdə Qarabağın təbiət sərvətlərindən danışacağıq.***



Bildiyimiz kimi, Qarabağ özünün təbiəti, landşaft örtüyü, iqlimi, flora və faunası, mədəni bitkilərin zənginliyi ilə həmişə məşhur olub. Erməni vandalizminə məruz qalmadan öncə burada çoxsaylı nadir, o cümlədən "Azərbaycanın Qırmızı kitabı" na daxil edilmiş bitki və heyvan növləri, qoruq və yasaqlıqlar mövcud olub. Buna misal olaraq, Zəngilan rayonu ərazisində, Bəsitçayın dərəsində yerləşən və Avropada yeganə təbii çinar meşəsini, Laçın rayonunun yüksək dağlıq ərazilərində 100-dən artıq bitki növünün qorunduğu Qaragöl Dövlət Təbiət Qoruğunu, qırmızı (qızılı) palıdın mühafizə olunduğu Laçının Hacışamlı meşəsini, Qubadlı və Laçın ərazisində qırmızı palıdın, qoz ağaclarının, vələs, ağcaqayın, yemişan, ardıc və s. bitdiyi Qubadlı Dövlət Təbiət Yasaqlığını və digər əraziləri göstərmək olar.



Qarabağda 110 fəsiləyə və 397 cinsə aid 606 növ dərman bitkisi (onlardan 4 fəsilə, 10 cinsə aid 11 növ şibyələrdir) yayılıb ki, bu bitkilərin 66 növü ofisinal təbabətdə dərman vasitəsi kimi istifadə olunur. Dərman bitkilərinin 19 fəsilə və 28 cinsdən ibarət 35 növü Qafqaz endemi, 32 növü nadir və itmə təhlükəsində olan, "Azərbaycanın Qırmızı kitabı"na salınmış bitkilərdir.

Öz tarixi boyunca Dağlıq Qarabağda toplanan dərman bitkiləri bir çox ölkələrə ixrac olunurdu. Qarabağın səfalı dağlarından toplanmış çiçək və otlara qədim Babilistan, Roma, Yunanıstan və hətta Misir əczaxanalarında rast gəlmək olurdu. Onların arasında dazı, andız, çobanyastığı otları və məşhur xarı bülbül çiçəyi vardı. Misir xəstəxanalarının birində çalışan qədim yunan alimi Erazistrat (e.ə. IV əsr) qədim Azərbaycan tibbinin irsini öyrənmək üçün Midiyanın paytaxtı Haqmadan (müasir Həmədan) şəhərinə gəlib və burada Qarabağdan gətirilmiş dərman bitkilərinin nümunələrini əldə edib Misirə aparıb.

E.ə. I əsrdə Romanın Qafqaz Albaniyası ilə müharibəyə girməsi də məhz Qarabağın zəngin təbii sərvətlərinə yiyələnmək məqsədini güdürdü. Lakin romalılar Alban dövləti üzərində qələbə çala bilmədiklərinə görə onunla sülh müqaviləsi imzalamağa üstünlük verdi. Bu sülh müqaviləsində dərman bitkilərinin alış-verişi haqqında da bənd olub. Məşhur tarixçi Strabona görə Roma imperiyası ilə Albaniya arasında bağlanan müqavilədə Albaniya ölkəsindən yığılan bitkilərdən dərmanlar hazırlanmalı və kiçik şüşə qablara doldurularaq Romaya verilməsi barədə öhdəliklər olub. Beləliklə, hələ yeni eranın əvvəlində həmvətənlərimiz Qarabağda yetişən dərman bitkilərini tibbi məqsədlərlə istifadə edirdilər.

Birinci əsrdə yaşamış məşhur Roma alimi Qalen Qafqaz Albaniyasından gətirilmiş otlardan müxtəlif məcunlar, həblər və başqa müalicə vasitələri hazırlayırdı. Beləliklə, Qarabağın tibbi irsi Romada tibb və əczaçılıq elmlərinin inkişafına təsir göstərirdi. VII əsr Alban tarixçisi Musa Qağankatlı özünün "Alban tarixi" kitabında yazır ki, tibb elmində kamilliyə çatan insanlar bu ölkədə xüsusi hörmət sahibləri olmuşdular. O zaman Qarabağda xüsusi əczaxanalar vardı. Orada həm yerli dərman bitkiləri, həm də dünyanın müxtəlif ölkələrindən gətirilmiş dərman bitkiləri satılardı. Peşəkar həkimlər "türkəçarə" adı ilə şöhrət tapmış türk xalq təbabətindən də bəhrələnirdilər.

Türkəçarə müalicəsinin təsvirinə erkən orta əsrlər zamanı Azərbaycanda, əsasən, Aran Qarabağ torpağında formalaşmış "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlmək olar. Bu əsərdə dağ çiçəyindən məlhəm hazırlanması və onunla igidin yarasının müalicə olunması səhnəsi var. Dastana əsasən, Turalın yaralarını sağaltmaq üçün anası Burla Xatunla qırx incəbelli qız dağlara qalxıb şəfalı çiçəklər toplayır, o çiçəkləri ana südü ilə qarışdırıb məlhəm düzəldirlər və Turalın yaralarını sağaldırlar.



Qarabağda yayılmış dərman bitkilərinin bioloji aktivlik və müalicəvi xüsusiyyətlərinin də kifayət qədər genişdir, bu bitkilərin 163 növünün diuretik, 157-nin antibakterial, 138-nin yarasağaldıcı, 81-nin büzüşdürücü, 19-nun antivirus xüsusiyyətlərə malikdir. Bu dərman bitkilərinin daha çox növü ürəkdamar (81 növ), mədə-bağırsaq (155 növ), böyrək (55 növ), qaraciyər (80 növ), dəri (149 növ), diabet (35 növ) və bir çox digər xəstəliklərin müalicəsində tətbiq edilir.

İşğaldan əvvəl aparılmış tədqiqatlara əsaslanaraq, Qarabağda 2500-ə qədər ali bitki növünün bitdiyini demək olar. Azərbaycan Respublikasının "Qırmızı kitab"ının I nəşrinə daxil edilmiş nadir və nəsli kəsilmək təhlükəsində olan bitkilərin bir çoxu Qarabağdan təsvir edilib. "Qırmızı kitab"ın II nəsrində 8 Qarabağ endemi haqqında məlumat verilib.





"Qırmızı kitab"a daxil edilmiş 11 növ ağac bitkisinə Qarabağın dendroflorasında rast gəlinir ki, bu da ölkə üzrə bütün nadir və nəsli kəsilməkdə olan dendrofloranın 21%-ni, Kiçik Qafqaz üzrə 50%-ni təşkil edir. İşğaldan əvvəl Qarabağda 228794 hektarı meşə ilə örtülü olan 260311 hektar meşə fondu olub və bunun 54328 hektarı ermənilər tərəfindən məhv edilib ki, bu da regionda mövcud olmuş meşə ehtiyatının 24%-dir.

İşğal dövründə böyük bir xarabalığa çevrilən Qarabağın həm təbii sərvətləri məhv edilib, həm də bərpası mümkünsüz olan misilsiz nümunələri talan edilib. Bu nümunələrdən biri də Zəngilanın dünyaca məşhur qırmızı çinar meşəliyi idi.

Məşhur Çinar Meşəsi də təbii olaraq bütün dünyada marağa səbəb olurdu. Bu çinar meşəsi təkcə Azərbaycanın deyil, bütün Qafqazın flora-faunasının zənginliyində özünəməxsus yer tuturdu. Bəsitçay hövzəsində yerləşən təbii çinar meşəsi sahəsinə, ağacların fiziki sağlamlığına, görünüşünə görə dünyada marağa səbəb olub. Zəngilan nadir bioekoloji əlamətinə görə bənzərsizdir, bu səbəbdən onu "Şərq florasının mirvarisi", möhtəşəm gövdəsi və füsunkarlığına görə isə "Cənubun nəhəng ağacı" adlandırırdılar. Bu meşədə yaşı 1500-ə, hündürlüyü 50 metrə, gövdə diametri 4 metrə çatan ağaclar var idi.

Çinar meşəsi çox nadir və füsunkar yaşıllıq mənbəyidir və ölkəmizin əvəzolunmaz sərvəti hesab edilirdi. Zəngilan çinarları dünyada bitən 8 çinar növündən biri idi. XX əsrin əvvəllərində sahəsi 120 hektara yaxın olan bu Çinar meşəsi bütünlüklə Azərbaycana məxsus idi. Lakin 20-ci illərdə Zəngəzur torpaqlarının yarısının Ermənistana verilməsi ilə Bəsitçay vadisindəki çinar meşəsinin bir hissəsi– Xaçın çay və Şixavuz çay vadiləri boyunca yayılan ağacları indiki Ermənistanın Qafan rayonunun Nerkin-Hand, Sav və Şixavuz kəndləri ərazisində qalıb. Beləliklə, ermənilər bu çinar meşəsinin də bir hissəsini öz ərazilərinə qatıblar.

Sonralar akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradıldı.

Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra 2-ci yeri tutur. Hazırda Kanada dövlətinin bayrağının üzərindəki Şərq çinarı yarpağının təsviri uzun müddətdir ki, bu dövlətin rəmzinə çevrilib. Bununla yanaşı, bir çox müəlliflər öz tədqiqatlarında hətta belə qənaətə gəlirlər ki, Zəngilanın çinar meşəsi– Şərq çinarı meşəsi dünyanın ən böyük çinar meşəliyi olub.

Tədqiqatçı, coğrafiyaşünas Oktay Ələkbərov da öz araşdırmalarında qeyd edir ki, Zəngilanın çinar meşəsi Yer kürəsinin ən böyük çinar meşəsidir və bu meşə massivi sahəsinin böyüklüyünə görə dünyada birincidir. Zəngilanın çinar meşəsi təkcə yerli mütəxəssislərin, coğrafiyaşünas alimlərin deyil, həm də dünya elminin görkəmli tədqiqatçılarının diqqətini cəlb edirdi. Zaman-zaman xarici alimlərin Zəngilan çinarları ilə yerində tanış olmaq üçün meşəyə gəldikləri də məlumdur. Ekspedisiya nümayəndələri Zəngilan çinarları ilə yerində tanış olaraq, onların hündürlüyü, diametri, xüsusiyyətləri, görkəmi haqqında ətraflı məlumat toplayıb və öz yazılarında bunlardan bəhs ediblər.

Qarabağın faunası da çox zəngin olub. Burada yaşayan və nəsli kəsilməkdə olan çoxsaylı növlər Azərbaycan Respublikasının "Qırmızı kitab"ının II nəşrinə daxil edilib. İşğal olunmuş ərazilərdə həşəratlar faunasının 56 növü nadir, endemik və nəsli kəsilmək təhlükəsindədir. Qarabağın daxili su hövzələrində 12 növ balıq yayılıb, onlardan 7-si Beynəlxalq Təbiəti Mühafizə Təşkilatının qırmızı siyahısına da daxil edilib. 1993-cü ilə qədər Qarabağ ərazisində 16 dəstəyə, 57 fəsiləyə daxil olan 288 növ quş qeydə alınıb. Bunlardan 50 növ "Qırmızı kitab"ın II nəşrinə daxil edilib. Qarabağ ərazisində işğala qədər 6 dəstəyə mənsub 64 məməli növü (bəzi müəlliflərə görə 70, digərlərinə görə 61 növ; bunların da 24 növü Azərbaycanın "Qırmızı Kitab"ına daxil edilib) qeydə alınmışdı.

Çox təəssüf ki, Ermənistan işğalı dövründə Qarabağın flora və faunası, məşhur təbiət abidələri də böyük ölçüdə məhv edilib. Məlum olduğu kimi, təbiət qoruqlarının qorunması YUNESKO tərəfindən həyata keçirilir. 1972-ci ildə bu haqda 164 ölkənin dəstəyilə Paris Konvensiyası qəbul edilib. Lakin Ermənistanın təcavüzü nəticəsində digər tarixi və mədəni abidələrimiz təbiət abidələrimiz də düşmən tərəfindən vəhşicəsinə talan edilib. Buna baxmayaraq, beynəlxalq təşkilatlar bu vandalizm və vəhşilik qarşısında susmağa üstünlük verir.

***Lalə Mehralı***

# Azərbaycan-Rusiya münasibətlərində YENİ MƏRHƏLƏ



***Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin ölkəmizə səfəri ilə Rusiya və Azərbaycan liderləri bu ilin əvvəlindən bu vaxta qədər artıq üçüncü dəfə görüşmüş olurlar. Xatırladaq ki, bundan əvvəlki iki görüş ilk öncə, bu ilin aprel ayında Moskvada, daha sonra isə iyulun əvvəlində Astanada ŞƏT sammiti çərçivəsində baş tutub. İki ölkə liderinin qısa zaman fasiləsində artıq bir neçə dəfə görüşməsi onu deməyə əsas verir ki, dövlətlərimiz və dövlət başçılarımız üçün belə bir görüş xüsusi əhəmiyyət, xüsusi önəm daşıyır və Rusiya ilə Azərbayan arasında münasibətlərin daha da yaxşılaşmasından, hətta həmin münasibətlərdə yeni mərhələnin başlanmasından xəbər verir.***

### Azərbaycan və Rusiya arasında münasibətlər, əlaqələr, daha da güclənməkdə olan əməkdaşlıq yüksələn xətt üzrə daim inkişaf etməkdədir

Heç şübhəsiz ki, səfər çərçivəsində hökumətlərarası sənədlərin imzalanması və danışıqların yekunlarına dair dövlət başçılarının birgə bəyanatı bütün dünyanın diqqət mərkəzindədir. Hətta onu deyə bilərik ki, Rusiya-Azərbaycan münasibətləri qlobal miqyasda belə diqqətlə izlənilir. Əlbəttə ki, ölkələrimiz arasında münasibətlərin, əlaqələrin, əməkdaşlıqların daha da yaxşılaşmasına beynəlxalq aləmdə xüsusi diqqətin ayrılması heç də təsadüfi sayıla bilməz. Ona görə təsadüfi sayıla bilməz ki, ölkələrimiz arasında münasibətlərin getdikcə daha da yaxşılaşması, iki qonşu dövlət arasında əlaqələrin daha da dərinləşməsi bütövlükdə regiona qarşı hiyləgər və məkrli siyasət yürütmək niyyətində olan kənar qüvvələrin qətiyyən işlərinə yaramır və hətta onları narahat da edir. Çünki başa düşürlər ki, regiona müdaxilə etmək imkanları sıfıra yaxınlaşır və buna görə də Bakı ilə Moskva arasında olan yaxınlıq bir çoxlarının yuxularını ərşə çəkmiş olur. Buna baxmayaraq, ölkələrimiz arasında, Azərbaycan və Rusiya arasında münasibətlər, əlaqələr, daha da güclənməkdə olan əməkdaşlıq hər iki tərəfi qane edir və maraqları ilə üst-üstə düşür deyə bu münasibətlər hansısa qüvələrin, hansısa dövlətlərin narahatlığına məhəl qoyulmadan yüksələn xətt üzrə daim inkişaf etməkdədir. Hətta bu münasibətlərin bundan sonra yeni bir mərhələyə qədəm qoyduğu da göz önündədir. İki qonşu dövlətin, Rusiya və Azərbaycanın daha yaxın əlaqələr qurmaqda maraqlı olduğunu görməmək, başa düşməmək mümkün deyil və istər Moskvanın, istərsə də Bakının maraqlarının üst-üstə düşməsi fonunda ölkələrimizin arasında günü-gündən daha da yaxşılaşmaqda olan münasibətlərdə yeni mərhələnin başlanması əlbəttə ki, məhz elə bu baxımdan qaçılmazdır.

### Putinin ölkəmizə hazırkı şəfəri tamamilə yeni bir şəraitdə, yeni reallıqların yaranmış olduğu bir dönəmdə reallaşıb

Xatırladaq ki, bundan əvvəl də Rusiya prezidenti Azərbaycana dəfələrlə səfərlər edib. Amma unutmaq lazım deyil ki, Putinin ölkəmizə hazırkı şəfəri tamamilə yeni bir şəraitdə, yeni reallıqların yaranmış olduğu bir dönəmdə reallaşıb. Artıq bütövlükdə regionda vəziyyət kəskin şəkildə dəyişib və Azərbaycanın yaratdığı yeni reallıqlar da xüsusən diqqətdən yayına bilməz. Beləki, 44 günlük müharibənin məntiqi nəticəsi olaraq, Azərbaycan öz torpaqlarını işğaldan azad etdi, geri qaytardı və yekun olaraq hətta bir sutkadan da az müddətdə belə uğurlu antiterror əməliyyatı keçirərək, öz ərazilərini həm separatçı ünsürlərdən tamamilə təmizlədi, həm də suverenliyini bütün ərazisi böyunca təmin etmiş oldu. Bu reallıqları elə Vladimir Putin özü də çox yaxşı bilir və başa düşür ki, ölkəmizə hazırki səfəri əvvəlkilərdən bir çox mənada kəskin şəkildə fərqlənir. Bilir ki, bu dəfə qalib olan, Zəfər qazanan, ərazi bütövlüyünü öz gücü, öz potensialı hesabına tamamilə təmin edən qüdrətli bir ölkəyə səfər edir. Rusiya lideri çox yaxşı dərk edir ki, Azərbaycan heç də ötən əsrin sonlarında müstəqilliyini yenicə bərpa edən kövrək, zəif bir ölkə deyil. Anlayır ki, artıq bu dəfə bütün dünyada söz sahibi olan, hesablaşılan, qüdrətli, qüvvətli, ələlxüsus da qalib bir ölkə ilə yaxınlıq edir. Eyni zamanda, artıq böyük nüfuz sahibi olan bir ölkə ilə münasibətlərini daha da yaxşılaşdırdığını da Putin çox yaxşı bilir.

Rəsmi Bakıya böyük ümidlərin olması da tamamilə məntiqidir

Xüsusilə diqqətə çatdırmaq yerinə düşərdi ki, Azərbaycanın sülh təşəbbüsləri təkcə Ermənistanla münasibətlərin tənzimlənməsi ilə məhdudlaşmır. Ölkəmizin qlobal miqyasda sabitliyin və təhlükəsizliyin təmin edilməsinə hər zaman öz töhvələrini verməkdə olduğu da bir reallıqdır. Xüsusən də ölkəmizin həm Rusiya, həm də Ukrayna ilə qırılmaz və qarşılıqlı faydalı əlaqələrinin təsirsiz olmadığı da təkzib edilə bilməz. Beləki, hər iki ölkə ilə ölkəmizin faydalı münasibətlər, əlaqələr qurması, ələlxüsus da Azərbaycanın diplomatik potensialı Rusiya-Ukrayna münaqişəsinin sülh yolu ilə həllində mühüm rol oynaya bilər. Sözsüz ki, bunu da məhz Rusiya lideri hər zaman nəzərə alır. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, məhz bu səbəbdən də iki ölkə liderləri arasında keçirilən görüşdə təkcə ikitərəfli münasibətlər deyil, həm də beynəlxalq və regional məsələlərin də müzakirə olunması heç də təsadüfi sayıla bilməz.

Doğrudur, iki ölkə liderləri arasında keçirilən görüşdə o cümlədən, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması da müzakirə olunub. Amma o da təsadüfi deyil ki, Vladimir Putinin Azərbaycana səfəri Rusiya-Ukrayna münaqişəsinin kəskinləşməsi fonunda reallaşıb. Hər halda Rusiya lideri Azərbaycanın həm Rusiya, həm də Ukrayna ilə sıx əlaqələrə sahib olduğunu lap əvvəldən nəzərə alıb. Heç şübhəsiz, o da nəzərə alınıb ki, elə Rusiyanın özü də daxil olmaqla, dünyanın əsas güc mərkəzləri ilə nizamlanmış əlaqələr sayəsində Azərbaycan öz qarşısında duran bütün tarixi vəzifələri uğurla həll edib. Elə bundan sonra da uğurla həll etmək iqtidarındadır, hansı ki, bunu hətta ukraynalı ekspertlər belə qeyd edirlər, etiraf edirlər. Bu isə o deməkdir ki, rəsmi Bakıya böyük ümidlərin olması da, yeni mərhələnin başlanması da tamamilə məntiqidir.

### Ölkə rəhbərimizin qeyd etdiyi müsbət dinamikanı hər birimiz müşahidə etməkdəyik

Dünyada gərgin geosiyasi vəziyyətin, bir çox ölkələrdə müşahidə olunan tənəzzülün, ən azından inflyasiya risklərinin, ümumiyyətlə qlobal şəkildə təzahür edən neqativlərin fonunda Azərbaycan-Rusiya iqtisadi əlaqələri get-gedə daha da yaxşılaşır, iki qonşu dövlətin qarşılıqlı ticarət əlaqələri artırmaqda davam edir, nəqliyyat-logistika sektorunda, energetika sahəsində əməkdaşlıq üçün birgə səylər göstərilir, qeyri-neft sektorunda əlaqələr şaxələndirilir, investisiyalar da genişləndirilir. Bu müsbət tendensiyaların fonunda Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana iki günlük dövlət səfəri çərçivəsində ikitərəfli gündəliyin geniş spektrinin, o cümlədən biznes müstəvisində əməkdaşlığın müzakirə olunması strateji əhəmiyyət kəsb edir və bütün bunlar ölkələrimiz arasında olan münasibətlərdə daha uğurlu yeni mərhələnin başlandığını isbatlayır. "2022-ci ilin fevralında imzaladığımız Müttəfiqlərin Əməkdaşlıq Bəyannaməsi uğurla həyata keçirilir və biz həm siyasi, həm də iqtisadi sahədə çox müsbət dinamika, yaxşı rəqəmlər görürük. Və təbii ki, biz enerji, nəqliyyat və bir çox digər sahələrdə əməkdaşlıq edirik", deyə cənab Prezident İlham Əliyevin Rusiya Prezidenti Vladimir Putinlə məhdud tərkibdə görüşü zamanı qeyd etdikləri iki dövlət arasında qarşılıqlı əlaqələrin səviyyəsindən Azərbaycan və Rusiya liderlərinin məmnunluğunu təsdiq edir.

Görünən odur ki, son illərdə Moskva və Bakı qarşılıqlı faydalı ticarətə və dinamik inkişaf edən investisiya və texnoloji əməkdaşlığa əsaslanan möhkəm iqtisadi bünövrə formalaşdırıb. Sirr deyil ki, ölkəmiz Azərbaycan Cənubi Qafqazda Rusiyanın əsas ticarət tərəfdaşıdır. Bu yaxınlara qədər Rusiyanın region ölkələri ilə ümumi ticarət dövriyyəsinin təxminən qırx faizinin məhz Azərbaycanın payına düşdüyünü də bilirik. Onu da bilirik ki, Rusiya, əvvəlki illərdə olduğu kimi, Azərbaycanın kənd təsərrüfatı və sənaye məhsullarının idxalçıları arasında yenə də birinci yeri tutur. Həmçinin məlumdur ki, ötən il qeyri-neft ixracının 3,3 milyard dollarlıq ümumi həcmindən 1,2 milyard dollarını Rusiyanın qeyri-neft məhsullarının ölkəmizdən tədarükü təşkil edib. Qeyd edək ki, bu rəqəm 2022-ci illə müqayisədə 18,5% artımdan xəbər verir və ölkə rəhbərimizin qeyd etdiyi həmin müsbət dinamikanı biz hamımız müşahidə etməkdəyik. Belə bir müsbət dinamika da əlbəttə ki, öz növbəsində, münasibətlərin daha da dərinləşməsinə, beləliklə də iki ölkə arasında münasibətlərdə yeni mərhələyə əsaslı zəmin yaradır.

Bakı və Moskva qarşılıqlı işgüzar əməkdaşlığın dərinləşməsinə, münasibətlərin daha da yaxşılaşdırılmasına olduqca həssas yanaşır

Diqqətə çatdıraq ki, İtaliya və Türkiyədən sonra Azərbaycanın üçüncü ticarət tərəfdaşı məhz Rusiyadır. Nəzərdən qaçırmaq olmaz ki, ötən ilin sonunda Azərbaycan-Rusiya ticarət dövriyyəsi 4,3 milyard dolları artıq ötüb keçib və bu da ondan əvvəlki ilin göstəricisindən 17,5 faiz çoxdur. Sözsüz ki, bu müsbət tendensiya cari ildə də möhkəmlənib və Azərbaycan Dövlət Gömrük Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar-iyul aylarında ikitərəfli ticarət dövriyyəsinin 2 milyard 573 milyon ABŞ dolları təşkil etməsi özü də artımdan xəbər verir. Çünki bu göstərici özü belə ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 5,2 faiz çoxdur. Göründüyü kimi, artımlar, dinamika, əlaqələrin daha da şaxələnməsi statistik rəqəmlərdə, iqtisadi göstəricilərdə özünü bir daha təsdiq edir və belə inkişaf tendensiyası iki ölkə arasında daha da yaxşılaşmaqda olan münasibətlərdə yeni mərhələnin başlaması üçün zəmin deməkdir.

Azərbaycan-Rusiya investisiya əməkdaşlığı özü də artıq çox uğurla inkişaf etməkdə, artmaqdadır. Diqqətə çatdıraq ki, Azərbaycanda Rusiya kapitallı artıq 1,3 minə yaxın şirkət qeydiyyatdan keçib. Xüsusilə vurğulamaq yerinə düşərdi ki, Rusiya sərmayələrinin ümumi həcmi 8,7 milyard dolları ötüb keçib. Əlbəttə ki, Azərbaycan da öz növbəsində Rusiyaya 1,2 milyard dollara yaxın investisiya yatırıb. Məsələn, "Azərsun Holdinq"in vəsaiti hesabına Krasnodarda meyvə-tərəvəz konservləri istehsalı müəssisəsi və çay fabriki tikilib, eləcə də tikinti materialları istehsalı üzrə yerli müəssisələr də Rusiya Federasiyasında lokallaşdırılıb. Həmçinin ticarət və vasitəçilik şirkətləri də çox fəaldırlar və azərbaycanlı investorlar Şimali Qafqazın, Stavropol diyarının və digərlərinin kurortlarında sanatoriyaları müasir dövrün tələblərinə uyğun şəkildə qurublar. Bir sözlə, Bakı və Moskva qarşılıqlı işgüzar əməkdaşlığın dərinləşməsinə, ticarətin daha da genişləndirilməsinə və investisiya vektorlarının şaxələndirilməsinə olduqca həssas yanaşır. Bu isə o deməkdir ki, yeni mərhələdə daha böyük uğurlara ümid etməyə dəyər.

### İki qonşu ölkə arasında olan münasibətlərdə başlayan yeni mərhələ böyük ümidlər vəd edir

Sözsüz ki, beynəlxalq əhəmiyyətli layihələr də öz növbəsində iki ölkə arasında olan münasibətlərə müsbət təsir edir və daha da dərinləşdirir. "Biz Şimal-Cənub layihəsinin həyata keçirilməsini və onun regional nəqliyyat dəhlizləri üçün əhəmiyyətini ətraflı müzakirə etdik. Deməliyəm ki, Azərbaycan ərazisində Şimal-Cənub dəhlizinin həm dəmir yolu, həm də avtomobil seqmentləri tam icra olunub və uğurla fəaliyyət göstərir. Hazırda biz bu dəhlizin ötürücülük qabiliyyətini artırmaq üçün onun dəmir yolu hissəsini fəal şəkildə modernləşdiririk: söhbət ildə 15 milyon ton və daha çox yükün daşınması imkanından gedir", deyə cənab Prezident İlham Əliyevin mətbuata açıqlamasında vurğuladıqları məhz Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizi layihəsinin Bakı ilə Moskva arasında dövlətlərarası əlaqələrin möhkəmləndirilməsi baxımından son dərəcə mühüm əhəmiyyət kəsb etdiyini təsdiq edir. Bir sözlə, Rusiya ilə Azərbaycan əlaqələrinin daha da möhkəmlənməsi, daha da yaxşılaşması üçün kifayət qədər imkanlar, kifayət qədər şərait var və bu da o deməkdir ki, ölkələrimiz arasında münasibətlərin yeni mərhələsi üçün artıq çoxdandır ki, zəmin formalaşıb. Bu isə onu deməyə əsas verir ki, artıq iki qonşu ölkə arasında olan münasibətlərdə başlayan yeni mərhələ böyük ümidlər vəd edir.

***İnam Hacıyev***

# LAÇIN: bir güllə atmadan azad edilən yurd yerimiz

***"Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günlərinin təsis edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 31 iyul 2023-cü il tarixli Sərəncamı ilə yeni bir qürur hissi yaşadıq. Çünki Sərəncamda da deyildiyi kimi, Ermənistanın hərbi təcavüzü nəticəsində 30 ilə yaxın işğal altında qalmış əzəli tarixi torpaqlarımız 44 günlük Vətən müharibəsində hərbi-siyasi yolla işğaldan azad olundu və şanlı Zəfərə aparan hər bir gün Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.***








Rəşadətli Azərbaycan Ordusunun əsgər və zabitlərinin canı, qanı bahasına Vətən müharibəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı şəhərləri, Zəngilan rayonunun Mincivan, Ağbənd, Bartaz qəsəbələri, Xocavənd rayonunun Hadrut qəsəbəsi və bir çox kəndləri, Tərtər rayonunun Suqovuşan kəndi, Xocalı və Laçın rayonlarının bir neçə kəndi daxil olmaqla, ümumilikdə 300-dən çox yaşayış məntəqəsi, həmçinin Ağdərə, Murovdağ və Zəngilan istiqamətlərində mühüm strateji yüksəkliklər işğaldan azad edildi. Qarabağın tacı Şuşa şəhərinin azad edilməsi və Ermənistanın kapitulyasiya aktını imzalamağa məcbur olması ilə müharibə başa çatdı.

Biz illər, əsrlər sonra da bu şanlı Zəfərin qürurunu yaşayacağıq. Bu qürurlu ərazilərimizin işğaldan azad olunduğu tarixlərlə qeyd etməyimiz isə haqqımızdır. Çünki 30 ildə həmin o torpaqların, o şəhərlərin işğalından yetərincə bəhs etmişik, kədərlənib-hiddətlənmişik, ağlayıb-sızlamışıq, köks ötürmüşük. İndi isə o şəhərlərin sevincini yaşamalı, bu şanlı tarixi günləri tariximizin ön səhifələrinə yazmalıyıq.

## Laçın azad olunan gün...

Sərəncamda qeyd edildiyi kimi, Azərbaycanın döyüş meydanında qazandığı böyük qələbə siyasi müstəvidə də öz təsdiqini tapdı – Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını işğaldan azad etmək məcburiyyətində qaldı və bununla da tarixi ədalət bərpa olundu.

2020-ci ilin həmin gününü- dekabr ayının 1-ni qürurla xatırlayırıq. Dövlətimizin başçısı yenə xalqa müraciət edirdi: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

Laçın rayonu 2020-ci ilin 1 dekabr tarixində ölkəmizə təhvil verilsə də, şəhərin özü və bəzi kəndlər 2022-ci ilin 26 avqust tarixində Azərbaycanın nəzarətinə keçib. Prezident İlham Əliyev bu tarixi hadisəni Laçın şəhəri günü elan etməklə əbədiləşdirib. Bununla da Laçının tam şəkildə Azərbaycanın nəzarətinə keçməsi prosesi başa çatıb. Budur, artıq 26 avqustu artıq ikinci ildir ki, Laçın şəhəri günü kimi qeyd edirik. Hər il bu təqvimin bu günü Laçından onun dünənindən, bu günündən qürurla yazacağıq.



## Böyük səhvin qurbanı olan 30 il...

1992-ci ildə Laçın Ermənistan ordusu tərəfindən işğal olunanda da dövlət də var idi, xalq da. Xalq elə bugünkü xalq idi: qəhrəman, cəsarətli, qorxmaz, igid, vətənpərvər oğullar yetişdirən xalq. Lakin Azərbaycan dövlətinin ozamankı rəhbərliyi tam fərqli idi. Hakimiyyət uğrunda mübarizədən başqa heç nəyi ilə yadda qalmayan AXC-Müsavat cütlüyü bu xalqı şəxsi mənafelərinin qurbanına çevirmişdi. Onlara əbədi masa təklif edən böyük qardaşlarına elə canı-dildən inanmışdılar ki, bunun üçün bütün ölkəni, xalqı qurban verməyə hazır idilər. Elə qurban da verdilər.

Azərbaycanın baş tacı olan Qarabağ onların vəzifə hərisliyinin qurbanı oldu. Xalq öz ata-baba yurdunu, əbədi torpaqlarını müdafiəyə qalxdı. Minlərlə oğul və qızımızı şəhid verdik. Minlərlə övladımız cəbhədən sağlamlığını itirərək qayıtdı. Lakin nəticə etibarilə ərazi bütövlüyümüz pozuldu, torpaqlarımızın 20 faizdən çoxu planlı şəkildə ermənilərə verildi.

Heç bir texnikası, silah-sursatı olmayan əliyalın xalq son anadək erməninin qarşısına çıxdı. Canından keçəcəyini, lakin torpağından keçməyəcəyini bildirdi. Lakin torpaqlar satılmışdı. Ermənilərə ərazilərimizə girmək üçün ən optimal yollar göstərilmişdi. Bu səbəbdən də minlərlə şəhid versək də, torpaqlarımızı qurtara bilmədik.

1992-ci ildə edilən böyük səhvin əzablarını düz 30 ilə yaxın bir dövrdə yaşadıq. Biz məcburi qaçqın, köçkünlərimizlə acınacaqlı bir tale yaşamalı olduq. Ölkə iqtisadiyyatını çökdürən ozamankı hakimiyyət Qarabağın işğalı ilə dövlətə dəyəri milyonlarla ölçülən ziyan vurdu. Azərbaycan uzun illər bu zərərlərin aradan qaldırılmasına çalışdı. AXC-Müsavat cütlüyünün səhvinin aradan qaldırılması, torpaqlarımızın düşməndən geri alınması, ərazi bütövlüyümüzün təmin edilməsi məqsədilə illərlə mübarizə aparıldı. Bu, elə də asan məsələ deyildi...

## Öncə iqtisadiyyat, sonra ordu, daha sonra torpaqlar...

Azərbaycan çökmüş iqtisadiyyatı fonunda nə milli ordunun yaradılmasına, nə də torpaqların geri alınmasına nail ola bilərdi. Ölkə rifah halı aşağı səviyyədə olan xalqın, üstəlik doğma ev-eşiyindən didərgin salınmış minlərlə məcburi köçkünün problemləri ilə üz-üzə qalmışdı.

Belə bir dövrdə Ümummilli Liderimiz Heydər Əliyev 20 yanvar 1990-cı ildə sovet imperiyasının Azərbaycanda törətdiyi qanlı faciədən sonra Moskvadan ölkəmizə qayıtdı. Ozamankı hakimiyyət vurğunları pis xislətləri ilə Onun Bakıda yaşamasına qarşı çıxdı. Belə olanda isə Ulu Öndər doğulduğu Naxçıvana qayıtmalı oldu. Və qayıtmasaydı, Naxçıvan da 90-cı illərin işğal planının qurbanı olacaqdı. Çünki 20 Yanvar hadisəsi fikirləri özünə yönəltməklə məhz Naxçıvanın işğalı üçün həyata keçirilmişdi.

Lakin Ulu Öndər naxçıvanlılarla birlikdə Naxçıvanı qorudu. Hələ üstəlik Azərbaycanın müstəqilliyi üçün addımlar da məhz Naxçıvandan başlandı. Xalqın təkidi ilə hakimiyyətə dəvət olunan böyük şəxsiyyət Azərbaycanın çox ağır günlərində bu vəzifəni öhdəsinə götürdü. Tarix də, zaman da sübut etdi ki, Azərbaycanı o ağır vəziyyətdən yalnız Ulu Öndər xilas edə bilərdi.

Heydər Əliyev dövründə bütün mürtəce qüvvələr hakimiyyətdən uzaqlaşdırıldı. Onların ölkənin müxtəlif ərazilərində həyata keçirmək istədikləri qarşıdurmaların qarşısı alındı. Ölkə iqtisadiyyatı dirçəlməyə başladı. Bu zaman milli ordunun da yaradılması reallaşdı.

Ulu Öndər Azərbaycanda elə bir idarəetmə sistemi tətbiq etdi ki, bununla ölkəmiz qısa zaman ərzində hərtərəfli inkişafa qədəm qoydu. Bütün dünya Azərbaycanı tanıdı. İqtisadi müqavilələr ölkənin gələcək inkişaf xəttini müəyyənləşdirdi.1993-2003-cü illərin hər anında Ulu Öndərimiz bütün çıxışlarında, səfərləri zamanı Qarabağın Azərbaycanın əzəli torpağı olmasından bəhs edir və bu torpaqların bir gün azad ediləcəyini bildirirdi. Ermənistanı dəfələrlə sülhə dəvət edir, dünyanı bu problemin həllinə çağırırdı. Lakin Ermənistan danışıqlara gəlmir, dünya isə susmaq mövqeyində dayanırdı.








Ulu Öndərin arzusunda olduğu, lakin ömrün vəfasızlığından reallaşdıra bilmədiyi məsələlərin hər birini dövlətimizin başçısı cənab İlham Əliyev böyük uzaqgörənliklə həyata keçirdi. 2020-ci ilə qədər ötən 17 illik fəaliyyəti dövründə ölkənin hərtərəfli inkişafı ilə Qarabağın azad olunması məsələsi paralel şəkildə aparıldı. Qısa zamanda ölkə iqtisadiyyatı gücləndi, milli ordu quruculuğu sürətlə həyata keçirildi. Ordu quruculuğuna ayrılan vəsait Ermənistanın ümumi büdcəsindən artıq oldu.

Dövlətimizin başçısı bütün dünyanı Ermənistan-Azərbaycan probleminin sülh yolu ilə həllinə çağırdı. Dünyanın ən mötəbər kürsülərindən Qarabağın Azərbaycanın əzəli torpağı olduğunu tarixi reallıqlarla sübut edərək erməniləri susdurdu. Bütün dünyaya haqlı olduğumuzu sübut etdi.

2020-ci ilədək xalqa yeni il və digər bayramlarla bağlı müraciətlərində, səfərləri zamanı çıxışlarında Qarabağın ya danışıqlar yolu, ya da hərb yolu ilə bir gün alınacağını qətiyyətlə söylədi. Bütün bunlar isə xalqda inam yaratdı. Dövlət-xalq birliyi də məhz bu kimi proseslərdən sonra formalaşır. Xalq heç vaxt inanmadığı dövlət rəhbəri ilə həmrəy ola bilmir. Bunu AXC-Müsavat cütlüyünün Azərbaycana rəhbərliyi illərində gördük. Lakin xalq cənab İlham Əliyevin ətrafında birləşdi. Çünki açıqca gördü ki, Azərbaycanı yox olmaq təhlükəsindən Ümummilli Lider Heydər Əliyev və onun siyasi varisi cənab İlham Əliyev qurtardı.

## 2020-ci il, 27 sentyabr

Dövlətimizin başçısının vəd verdiyi o gün gəlib çatmışdı. 27 sentyabr 2020-ci il. Bu zaman Azərbaycan artıq 30 il əvvəlki Azərbaycan deyildi. Azərbaycan böyük iqtisadi gücə malik, dünyanın tanıdığı, hesablaşdığı, güclü milli ordusu olan, vətənpərvər gənclərə, xüsusilə də dövlət-xalq birliyi əsasında formalaşan həmrəyliyə malik bir ölkə idi.

Ermənistan isə 30 il əvvəlki təfəkkürdə qalmış bir ölkə idi. O, hələ də "böyük Ermənistan" xülyası ilə yaşayır, qeyri-sağlam təfəkkürü ilə Azərbaycanın gücünü görə bilmirdi. Bu səbəbdən də yeni torpaqlar işğal etmək arzusu ilə meydana atılmışdı. Elə İkinci Vətən müharibəsinin başlanma səbəbi də bu oldu. Yadımdadır, dövlətimizin başçısı 27 sentyabrda səhər saatlarında xalqa müraciət edəndə də bunu vurğulamışdı. Ermənilərin yeni torpaqlara iştahlandığını, lakin bunun son olduğunu bildirmişdi.

Beləliklə, 27 sentyabr 2020-ci ildə Ermənistanın 30 illik əməllərinə son qoymaq üçün müharibəyə başladıq. Elə müharibənin ilk günləri Prezident İlham Əliyev bir neçə yüksəklik və kəndlərin geri alındığı müjdəsini verdi. Bu gündən həmin 44 günə nəzər salanda adamın ürəyi qürurla dolur. Hər kəs təsdiq edər ki, Azərbaycanda dövlət-xalq birliyi həmin günlərdəki qədər möhkəm, eyni zamanda xoş duyğularla dolu olmamışdı.

Dövlətimizin başçısının çağırışı ilə bütün xalq ayağa qalxmışdı. Hamı könüllü şəkildə cəbhəyə yollanmaq istəyirdi. Səfərbərlik idarələrinin qarşısı insanla dolu idi. Hər gün televiziya vasitəsilə hadisələri izləyir, "dövlət başçısının müraciəti olacaq" xəbərini alan kimi yenə müjdəli xəbər eşidəcəyimizə əmin olurduq. Beləliklə, 44 gün ərzində Prezidentimiz dəfələrlə xalqa müraciət etdi və ərazilərimizin işğaldan azad olunduğu xəbərlərini xalqına verdi.

Erməni ordusunun məhvi, 30 ildə yaratdıqları keçilməz müdafiə istehkamlarının yerlə yeksan edilməsi, onların Azərbaycan haqqında köhnə fikirlərinin alt-üst olması, hər gün bir qədər geri çəkilmələri, Azərbaycan ordusu qarşısında tab gətirə bilməmələri və müharibənin 44-cü günü Şuşanın azad olunmasından sonra məğlubiyyətlərini dərk edib kapitulyasiyaya gəlmələri bütün dünyaya xalqımızın gücünü, həmrəyliyini, dövlət başçısı, dəmir yumruq ətrafında sıx birləşməyimizi göstərdi. Dünya da bunu heyranlıqla qarşıladı. Dünənədək susanlar bu dəfə münasibətlərini bildirməyə başladı...

44 gün sonra müharibə bitdi. Azərbaycan, Rusiya və Ermənistan arasında imzalanmış birgə Bəyanatla Laçın, Kəlbəcər və Ağdam boşaldılmalı və Azərbaycana təhvil verilməli idi. Artıq dekabr ayının 1-də Laçın 30 ildən sonra anası Azərbaycana qovuşdu. Bu müjdəli xəbəri də ölkəmizin başçısı, Ali Baş Komandan cənab İlham Əliyevdən aldıq: "Böyük sevinc hissi ilə bildirirəm ki, Laçın rayonu işğaldan azad olundu. Bütün Azərbaycan xalqını bu münasibətlə ürəkdən təbrik edirəm. Laçın rayonunun işğaldan azad olunması tarixi hadisədir. Özü də bir güllə atmadan biz Laçın rayonunu qaytardıq. Düşməni buna məcbur etdik. Döyüş meydanında əldə edilmiş parlaq qələbə bu gözəl nəticəyə gətirib çıxardı ki, üç rayonumuz – Ağdam, Kəlbəcər və Laçın bizə qaytarıldı. Biz bu rayonları bir güllə atmadan, bir şəhid vermədən qaytarmışıq".

## Laçına Qayıdış-qürur üzərinə qürur

Müharibənin Zəfərlə bitməsi xalqımıza böyük qürur hissi yaşatdı. O gündən bu günə kimi isə onlarla belə qürurlu anlar yaşamışıq. Qürurlu anlardan birini də may ayının 28-də, Laçın 31 il sonra doğma sakinlərini qoynuna alanda yaşadıq.

Prezident İlham Əliyevin Laçın şəhərinə qayıdan əhali ilə görüşündəki çıxışı böyük tarixi faktlar toplusudur. Kəlmə-kəlmə dinlədiyimiz dəyərli fikirlər bizi yenidən 44 günə apardı. Lakin burada bir fərq vardı. Biz artıq bu fikirləri Ermənistan üzərində tam qələbəni qazanmış müzəffər Ali Baş Komandandan dinləyirdik.

Prezident evlərin açarlarını Laçın sakinlərinə təqdim etdi və dedi: Əziz laçınlılar, siz uzun illər əzab içində yaşamısınız, həm fiziki, həm mənəvi, ağır şəraitdə, yataqxanalarda, vaqonlarda, çadır şəhərciklərində. Ondan daha ağırı mənəvi əzab idi. Yəni, öz doğma torpağına qayıda bilməmək əzabı dəhşətlidir. Bunu hər kəs başa düşməlidir və başa düşür. Mən dəfələrlə həm Laçından, həm də o vaxt işğal edilmiş digər rayonlardan köçkünlərlə görüşəndə onlara ürəkdirək verirdim, deyirdim ki, qayıdacağıq, qayıdacağıq! Görürdüm ki, son vaxtlar ümidlər bir az səngiyir, bu da təbiidir. Yəni, 30 ilə yaxın. Bunu anlamaq olar. Amma deyə bilmirdim ki, nə vaxt qayıdacağıq. Necə deyə bilərdim? Amma bilirdim ki, qayıdacağıq və əgər indi 11 il bundan əvvəlki görüşün videoyazısına baxsanız, görərsiniz demişdim ki, qayıdacağıq və Laçında daha gözəl evlər tikiləcək. Bax, belə də oldu. Ona görə sizin üçün və sizin kimi keçmiş köçkünlər üçün şərait ən yaxşı olmalıdır, ən gözəl olmalıdır ki, siz uzun əzablı illərdən sonra burada rahat yaşayasınız. Biz çalışacağıq ki, bunu bundan sonra da təmin edək.

Mən sizi həm qayıtmağınız, həm də bayram münasibətilə təbrik edirəm, sizə cansağlığı, uğurlar arzulayıram.

Dövlətimizin başçısı daha sonra vurğuladı: Bu gün yeni Laçın şəhərinin yeni siması müstəqilliyimizin nə qədər güclü olmasını bir daha göstərir. Çünki cəmi 7-8 ay ərzində şəhərin böyük hissəsi tamamilə yenidən qurulub və sizin sərəncamınıza verilir. İlk 20 ailə artıq dünəndən Laçında yerləşibdir və iyun ayının sonuna qədər əlavə bir çox ailələr gələcək. Beləliklə, birinci mərhələdə Laçında 4 minə yaxın, bəlkə də çox insan yaşayacaqdır.

Bütövlükdə 7-8 ay ərzində 700 bina inşa edilib, onlardan 620-si fərdi yaşayış binası, 9 çoxmənzilli bina və orada 144 mənzil hazırlanıbdır. Beləliklə, artıq 764 ailə Laçın şəhərində yaşaya bilər. Amma bu, hələ tam proqramımız deyil. Laçın şəhərinin Baş planı hazırlanıb və bu gün təqdim ediləcək. Laçın şəhərində ikinci mərhələdə görüləcək işlərlə bağlı bizim çox dəqiq təsəvvürümüz var və beləliklə, hesab edirəm ki, ilin sonuna qədər daha çox insan Laçında yaşaya biləcək.

Bununla paralel olaraq indi tibb məntəqəsi hazırlanır. Məktəb yeni dərs ili üçün hazır olacaq, bütün digər lazımi şərait yaradılır. Dünən mənə göstərilən təqdimatda gördüm ki, onlarla müəssisənin yaradılması nəzərdə tutulur. Artıq Aqro və Sənaye Parkı yaradılmaqdadır, 1100-dən çox iş yeri yaradılacaq. Yəni, burada həm yaşamaq, həm işləmək üçün bütün şərait yaradılır və gördüyünüz kimi, bu gün Laçın şəhəri dünyanın ən gözəl şəhərlərindən birinə çevrilibdir.

Salanan məsələlərin əksəriyyəti artıq Laçında öz həllini tapıb. Laçın şəhərinə bu günədək mi 493 ailə (1 838 nəfər), Laçın rayonunun Zabux kəndinə cəmi 217 ailə (823 nəfər) köçürülüb. Onlar vaxtilə yaşadıqları, işğala son qoyulduqdan sonra dövlət başçısının göstərişi əsasında bərpa edilən və ya yenidən tikilən evlərdə məskunlaşıblar.

## Laçın-cənnətin təsviri...

Torpaq şərəf, namusdur. Azərbaycan xalqı müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə milli ordumuzun sayəsində tarixi torpaqlarına qovuşdu və illərlə üzünə vurulan "sizin də torpaqlarınız erməni işğalı altındadır" töhmətindən azad oldu. Eyni zamanda namus və şərəf məsələsini həll etdi.

Həqiqətən bir sərkərdə üçün xalqına itirdiyi torpağı azad edib qaytarmaqdan böyük xoşbəxtlik ola bilməz. Bu xoşbəxtlik Heydər Əliyev siyasətinin davamçısı, Ulu Öndərin siyasi və mənəvi varisi, ata vəsiyyətini böyük qətiyyətlə yerinə yetirən cənab İlham Əliyevə nəsib oldu. Tarix 1990-cı illərdə torpaqlarımızı satanları öz qara səhifələrinə yazdı. 2020-ci ildə həmin torpaqları böyük əzmlə geri alanları isə ən parlaq səhifələrinə həkk etdi. Bundan böyük səadət ola bilməz ki, bir xalqın tarixində əbədiyyən yaşayasan.

Qədim Laçın və yurdun əzəli sakinləri bu gün yurdlarının azadlığı, bərpası və artıq Böyük Qayıdışa başladıqları üçün müzəffər Ali Baş Komandana minnətdardırlar. Onlar cənnət-məkan ata-baba torpaqlarının, doğma ev-eşiklərinin artıq əbədi sakinləridir.

Sakinlərlə görüşündə dövlətimizin başçısının daha bir dəyərli fikri isə Laçının gözəlliyini xarakterizə edir: Biz öz doğma torpaqlarımızı işğalçılardan azad edəndən sonra mən demişdim ki, Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcəyik. Cənnətin əgər təsviri varsa, bu gün bax, budur. Gözəl təbiət, əzəmətli dağlar, gözəl binalar, evlər – hər şey çox böyük zövqlə yaradılır ki, həm insanlar burada rahat yaşasınlar, həm də Laçın şəhərinin müasir siması Azərbaycanın əldə etdiyi uğurları ilə eyni səviyyədə olsun.

Günün mübarək, Laçın! Cənnətin təsviri olaraq hələ qarşıda bütün sakinlərini qarşıladıqca daha gözəl görünəcəksən. Çünki yurd yurddaşı ilə həqiqətən bir cənnətdir...

***Mətanət Məmmədova***

# Milli ruhumuzun qidası – Muğam



***Ən qədim musiqi janrlarından olan muğamın bütün dövrlərdə dünya musiqişünaslarının, sənətsevərlərin diqqət mərkəzində olması əbəs yerə deyildi. Qədim və orta əsr musiqi mədəniyyətinin, folklorunun öyrənilməsində muğam əsas amillərdən biri kimi tədqiqatçıların daim təhlil obyektinə çevrilmiş və bu janr bu gün də musiqişünaslar tərəfindən araşdırılmaqdadır.***

Yaşı bilinməyən muğamlarımızın müəllifi Azərbaycan xalqıdır və muğamımız yalnız Azərbaycanda, Şərq ölkələrində deyil, ümumilikdə dünyada sevilir və bəşəriyyətin mənəvi irsinin bənzərsiz xəzinələrindən hesab edirlir. Avqustun 26-sı Beynəlxalq Azərbaycan Muğamı Günü və Musiqisi Günü kimi qeyd olunur. 2010-cu ildə Kanadanın Niaqara şəhərinin meriyası və ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Niaqara Musiqisi Festivalının rəhbərliyi tərəfindən qəbul olunan bu qərar xalqımızın milli sərvəti olan muğamın bəşəri musiqiyə çevrildiyini bir daha təsdiq edir. Bu tarix muğamsevərlər, ömrünü bu sənətin yaşamasına və təbliğinə həsr edənlər üçün ən əziz bayramdır.

### XALQIMIZIN MƏDƏNİ ƏNƏNƏLƏRİNDƏ DƏRİN KÖKLƏRƏ MALİK MUĞAM SƏNƏTİ

Azərbaycan muğamı dünya ölkələrində birmənalı olaraq qəbul edilir, dünyanın mədəni irs siyasında nadir əsər tək qorunur və təqdim olunur. 26 avqust tarixi bütün muğamsevərlərin, xüsusilə də, bu sənət növünü yaşadan və onun təbliğinə daim yaradıcılıq və həyat yolunu həsr edən şəxslərin bayramıdır. Muğam sənəti Azərbaycanın professional musiqi mədəniyyətinin şifahi irsinin mühüm qismini təşkil etməklə, Azərbaycan xalqının mədəni ənənələrində və tarixində dərin köklərə malikdir. Bu mədəni ənənənin Azərbaycanda köklərinin olması ölkədə onun daşıyıcılarının sayı, eləcə də, onun Azərbaycan bəstəkarlarının, rəssamlarının, heykəltəraşlarının və şairlərinin tükənməz ilham mənbəyi olan milli mədəniyyətdə mühüm rolu ilə təsdiqlənir. Muğam sənəti azərbaycanlılar tərəfindən milli özünüdərk və özünü eyniləşdirmənin əsasını təşkil edən başlıca mədəni dəyərlərdən biri kimi qavranılır. Bu sənət Azərbaycan ərazisində yaşayan talışlar, dağlı yəhudilər ləzgilər, gürcülər, avarlar kimi etnik qruplar arasında da populyardır. YUNESKO muğamı "bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri" elan etmişdir. Muğam - Azərbaycanın ənənəvi musiqisinin ən iri janrının ümumi adıdır, muğam formalarının bütün növlərinə şamil olunur, hərçənd onlardan hər birinin öz ayrıca adı mövcuddur. Bu janrı təmsil edən başlıca musiqi formaları - dəstgah, muğam və zərbi-muğamdır. Azərbaycan musiqisində mövcud olan bütün muğam formaları arasında öz miqyasına və bədii ideyasına görə ən böyüyü dəstgahdır. Professional muğam sənətinin tarixinə mənbələr əsasında diqqət yetirsək, görərik ki, 1922-ci ildə muğamın tədrisi Bakıda açılmış ilk Avropa tipli musiqi tədris müəssisəsinin dərs proqramına daxil edilmişdir. Tədris proqramının tərtibi sonda Azərbaycan dəstgahlarının strukturunda xeyli islahatlara və ənənəvi məhəlli məktəblərin nisbi unifikasiyasına gətirib çıxardı. Muğamın tarixinə diqqət etdikdə, görürük ki, Üzeyir Hacıbəylinin göstərişinə əsasən, o vaxtın ən nüfuzlu musiqiçilər qrupu dəstgahların ixtisar edilmiş tədris versiyalarını işləyib hazırlamışdır. Ötən əsrin 20-ci və 30-cu illərində tədris versiyaları ilə yanaşı, böyük sənətkarların - o vaxtın ustadlarının genişləndirilmiş versiyaları da mövcudluğunu davam etdirirdi. Muğam ifaçılığının yayılmasında və onun professional şəkil almasında XIX yüzilin 20-ci illərindən XX yüzilin əvvəllərinə qədər Azərbaycan şəhərlərində yaranmış ədəbi və musiqi məclisləri böyük rol oynamışlar. Onlardan ən məşhuru Şuşada "Məclisi-Fəramuşan", "Məclisi-Üns", Musiqiçilər Cəmiyyəti, Şamaxıda "Beytüs-səfa" və Mahmud ağanın musiqi məclisi, Bakıda "Məcməüş-şüəra", Gəncədə "Divani-hikmət", Ordubadda "Əncümən-üş-şüəra", Lənkəranda "Fövcül-füsəha" idi. Bu məclislərdə şairlər, ədiblər, musiqiçilər, sadəcə, ziyalı şəxslər, klassik poeziyanın və musiqinin sərrafları və biliciləri toplaşır, muğamları diqqətlə dinləyir, musiqinin və şeirin incə ifası ətrafında müzakirələr aparırdılar. Məclislər özlüyündən XIX yüzildə və XX yüzilin əvvəlində Azərbaycan musiqiçilərinin professional baxımdan kamilləşmələrində güclü stimul rolunu oynamışdı. XX yüzilin 20-ci illərindən başlayaraq - sovet dövründə Azərbaycanda musiqi təhsili, o cümlədən, muğamın tədrisi 3 mərhələli sistem üzərinə köçürüldü: məktəb - texnikum - konservatoriya. Beləliklə, muğam sənətinin tədrisi prosesi indi formal olaraq 14-15 il vaxt aparır. İfaçılar özləri hesab edirlər ki, professional yetkinlik musiqiçiyə 5-10 il praktik çıxışlardan tez olmayaraq çatmaq olar. Beləliklə, muğam ifaçısının ustad, yəni öz peşəsində əsil professional olmasından ötrü 20-25 il vaxt tələb olunur. Tələbin bu səviyyəsi özlüyündə muğamı şifahi ənənəvi professional sənət səviyyəsinə qaldırır.

### MUĞAMA YENİ BAXIŞ

Azərbaycanda sovet rejimi qurulduqdan sonra, xüsusən də, 30-cu illərdən başlayaraq, musiqi mədəniyyəti tamamilə dövlətin nəzarəti altına keçir. Sovet dövlətinin yürütdüyü "dəmir pərdə" siyasəti uzun müddət Azərbaycan musiqisi üçün beynəlxalq musiqi məkanına çıxışı bağlamışdı. XX yüzilin əvvəllərində, Şərq incəsənəti Qərb auditoriyasında maraq doğurduğu vaxtlarda Azərbaycan musiqiçiləri məlum siyasi vəziyyətə görə, ona sərbəst çıxışa malik olmadıqları kimi sovet Şərqinin ənənəvi musiqiçiləri də belə bir çıxışa malik deyildilər. Müvafiq olaraq Qərbin bədii məkanında müsəlman Orta Şərqinin musiqi mədəniyyətlərindən daha çox yeri ərəb, İran və türk ənənəvi musiqisi tutmuşdur. Xarici mədəni məkanda Azərbaycan muğamının mövqeyinin itirilməsi ilə yanaşı, Azərbaycanın özünün daxilində də keçən yüzilin 20-30-cu illərin məlum şüarlarında ifadə olunmuş nihilist tendensiya ("doloy tar!", "doloy muğam") tədricən muğam sənətinin ictimai statusunu laxlatdı.

XX yüzilin 30-cu illərindən başlayaraq, 70-ci illərədək olan dövrdə Azərbaycan cəmiyyətində muğamata primitiv sənət kimi baxış tədricən möhkəmlənməyə başladısa da, hər halda cəmiyyətdə, onun müəyyən bir hissəsində muğamatın populyarlığını azaltmadı. Muğam sənətinə münasibət yalnız XX yüzilin 70-ci illərində ənənəvi musiqinin ilk beynəlxalq simpoziumları və festivallarının keçirilməsindən və bu hadisələrin sovet cəmiyyətində geniş əks-səda doğurmasından sonra dəyişməyə başlayır. Bu tədbirlər ənənəvi musiqi sənətinə marağın oyanmasına və ona yüksək dərəcəli professional sənət olaraq baxışların formalaşmasına rəvac verdi.

XX yüzilin 90-cı illərindən başlayaraq Azərbaycan muğam sənəti dünyanın hər yerində dinləyicilərin, mütəxəssislərin və menecerlərin diqqətini get-gedə daha geniş şəkildə özünə cəlb etməyə başlayır. Azərbaycanın ənənəvi musiqiçiləri beynəlxalq festivallarda iştirak edir, dünyanın hər yerinə qastrollara çıxır, onların diskləri Qərbin ən iri səsyazma studiyalarında buraxılır.

### HEYDƏR ƏLİYEV FONDUNUN TƏŞƏBBÜSÜ İLƏ MUĞAMA DƏSTƏK

Müasir dövrümüzdə özünün yeni bir inkişaf dövrünü yaşayan Azərbaycan muğamı dövlət tərəfindən qorunur və təbliğ edilir. Azərbaycan xalqının mədəni ənənələri və tarixində dərin köklərə malik olan muğam sənətinin inkişafına və təbliğinə xüsusi önəm verilir. Muğamı qorumaq, inkişaf etdirmək, onun gözəlliyini və dərin fəlsəfəsini gələcək nəsillərə çatdırmaq məqsədi ilə Heydər Əliyev Fondu tərəfindən irimiqyaslı layihələrin həyata keçirildiyini qeyd etməliyik. "Azərbaycan muğamları" layihəsi çərçivəsində "Qarabağ xanəndələri" musiqi albomunu nəfis şəkildə nəşr etmişdir. Albomda 24 virtuoz muğam ifaçısının səsləndirdiyi muğam parçaları qədim və zəngin mədəniyyətimiz barədə dinləyicilərdə geniş təsəvvür yaradır.Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin təbliği sahəsində həyata keçirilmiş layihələr arasında Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə Bakı şəhərində Beynəlxalq Muğam Mərkəzinin yaradılması önəmli yer tutur. Regionlarda da Muğam Mərkəzlərinin yaradılmasına dəstək verən Heydər Əliyev Fondunun təşəbbüsü Muğam Mərkəzləri inşa olunmuşdur. Füzuli, Ağcabədi, Ağdam kimi rayonlarında muğam mərkəzləri yaradılmışdır. Heydər Əliyev Fondu tərəfindən Azərbaycan muğamının inkişafı və dünyada tanıdılması məqsədilə müxtəlif müsabiqələr və beynəlxalq festivallar təşkil edilərək həyata keçirilir. İlk olaraq fondun birbaşa dəstəyi ilə keçirilən və Azərbaycan muğam sənətinin inkişafına və təbliğinə böyük töhfələr verən muğam müsabiqələrini və beynəlxalq festivalları qeyd etmək lazımdır. 2005-ci ildə görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin anadan olmasının 120 illik yubileyi münasibətilə Heydər Əliyev Fondu tərəfindən keçirilən muğam müsabiqəsi Azərbaycan tamaşaçıları ilə yanaşı, xaricdə yaşayan soydaşlarımız tərəfindən də razılıqla qarşılandı. Qədim muğam sənətinin qorunub saxlanılması, zəngin tarixə malik ifaçılıq sənətinin gələcək nəsillərə çatdırılması, yeni ifaçılar nəslinin yetişdirilməsi məqsədi ilə fond 2007-ci ildən başlayaraq muğam müsabiqəsi keçirilir.Bakıda Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilati dəstəyi ilə dünyada ilk dəfə olaraq "Muğam aləmi" Beynəlxalq Muğam Festivalının keçirilib. Festival çərçivəsində keçirilən Respublika Muğam Müsabiqəsi, Beynəlxalq Muğam Müsabiqəsi və Beynəlxalq Elmi Simpoziumda muğamsevərlər, elmi tədqiqatçılar və dünyanın bir çox ölkələrindən dəvət olunmuş xarici qonaqlar iştirak etmişlər. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycan muğam sənətinə bu diqqət və qayğısı muğamın təbliği, tədrisi, peşəkar musiqi ifaçılığının, müasir dinləyici mədəniyyətinin formalaşdırılmasında əvəzsiz rol oynayır.

2008-ci ildə, həmçinin, Fondun Azərbaycan muğamına həsr olunmuş yeni nəşri - "Azərbaycanın muğam ensiklopediyası" (iki clddə) Azərbaycan, rus və ingilis dillərində nəşr edilmişdir. Bu gün Azərbaycan muğam sənətinin nüfuzlu simaları dünya miqyasında Azərbaycan muğam sənətini təbliğ edərək bu sənəti nadir əsər tək tamaşaçılara çatdırırlar. Demək olar ki, bu gün Azərbaycan muğamı dünyanı fəth edib. Bu sənətin qocaman, yaşlı, gənc sənətkarları hər zaman öyrənir, öz üzərilərində çalışır və Azərbaycan muğamını çoxsaylı tamaşaçıya təqdim edirlər. Belə bir sənət növü ilə hər bir azərbaycanlı qürürlanmaqda haqlıdır.

Beynəlxalq Azərbaycan Muğamı Günü və İpək yolu üzərində yerləşən ölkələrin musiqisi günü elan olunması bir daha Azərbaycan mədəni irsinə beynəlxalq səviyyədə verilən qiymətdir. Bu gün dövlətimizin mədəniyyətimizə, o cümlədən muğam sənətinə, onu yaşadanlara böyük diqqət və qayğısı onları yeni-yeni yaradıcılıq axtarışına həvəsləndirir. Muğamımız bu gün bütün dünyanı fəth etmək, dilindən, dinindən, irqindən, miliyyətindən asılı olmayaraq, hər kəsin qəlbini, ruhunu oxşamaq iqtidarındadır.

***Zümrüd BAYRAMOVA***

# Şirniyyatdan anidən İMTİNA: QORXULU NƏTİCƏLƏR?



***Təbii şəkərlər bədənimiz üçün lazımdır, amma hamımız bilirik ki, həddindən artıq şəkər sağlamlığa zərərlidir. Həddindən artıq şəkər istehlakı diabetdən tutmuş ürək xəstəliklərinə qədər bir çox sağlamlıq problemlərinə səbəb olur. Ancaq qəfildən şəkər istehlakını dayandırsanız, bəzi çəkilmə simptomları və bir çox yan təsirlərlə qarşılaşmalı ola bilərsiniz. Şəkərdən imtina etdiyiniz zaman yeməkdən sonra şişkinlik, miqren və yorğunluq kimi bəzi müvəqqəti arzuolunmaz simptomlarla qarşılaşa bilərsiniz.***

İllər əvvəl şəkər pəhrizimizin kiçik bir hissəsini təşkil edirdi. Biz şəkəri daha çox meyvə və nişasta kimi təbii məhsullardan alırdıq. Bununla belə, şəkər qəbulu son illərdə xüsusilə qatqılarla sürətlə artıb. “American Journal of Clinical Nutrition” jurnalında aparılan araşdırmaya görə şəkər ümumi enerji qəbulunun orta hesabla 14,1 faizini təşkil edir. Şəkər, ultra emal olunmuş qidalardan tutmuş qatıq və pomidor sousu kimi sağlam qəlyanaltılara qədər ağlınıza gələn hər şeydə olur.

Həddindən artıq şəkərli qidaların qəbulu reseptorları stimullaşdırır və dopaminin yatırılmasına səbəb olur. Bu, növbəti dəfə eyni dadı əldə etmək üçün daha çox şəkər istehlak etməyinizə səbəb olur. Təəssüf ki, bu pis dövrün sonunda özünüzü şəkərdən asılı tapmaq belə ürəkaçan deyil.









ARAŞDIRMA

Şəkərin dopaminə və beynin mükafat mərkəzinə təsirinə görə kokain kimi dərmanlarla oxşar təsirlərə malik olduğunu göstərən bir çox araşdırma var. Nəticə etibarı ilə şəkəri kəsdiyiniz zamani bəzi problemlərlə üzləşirsiniz.

Bu nöqtədə təslim olmamalı və sağlamlığınız üçün ən yaxşısını etməyə davam etməlisiniz. Yemək vərdişlərində kiçik dəyişikliklər edərək və nə etməli olduğunuzu öyrənərək bu prosesi asanlıqla keçə bilərsiniz. İnanın, şəkəri az olan və pəhrizə alışmaq düşündüyünüzdən də asan olacaq.

SİA mövzu ilə bağlı araşdırma aparıb.

## Şəkərdən imtina nədir?

Şəkəri həyatınızdan tamamilə çıxardığınız zaman şiddətli baş ağrısı, yorğunluq, sancılar və ürəkbulanma kimi sizi yorğunlaşdıran problemlərlə qarşılaşa bilərsiniz. Yaxşı, bunun səbəbləri nədir? Gəlin əsas səbəblərə birlikdə nəzər salaq.

## Şəkərdən imtina etdiyiniz zaman sizi nə gözləyir?

Şəkər kimi tanınan qlükoza bədəninizin əsas enerji mənbələrindən biridir. İstifadə etdiyiniz karbohidratlar kiçik şəkərlərə parçalanır və bədəninizin ehtiyac duyduğu enerjini təmin edir. Şəkər istehlakını kəskin şəkildə azaltdığınız zaman, vücudunuz yeni enerji mənbələri axtararkən qan şəkəriniz düşür. Ürəkbulanma, baş ağrısı və yorğunluq kimi problemlər şəkərin çəkilməsi ilə tez-tez baş verən tipik yan təsirlər arasındadır.

Təbii ki, bu cür yan təsirləri nə dərəcədə hiss edəcəyinizi qida rasionunuzda istehlak etdiyiniz şəkərin miqdarı müəyyən edir. Əgər əvvəllər şəkər və dadlı yeməklər yükləmisinizsə, yəqin ki, bu təsirləri çox hiss edəcəksiniz.

Şəkər istehlakı dayandırıldıqda ümumi simptomlar:

- **baş ağrıları**
- **yeməkdən sonra şişkinlik**
- **ürəkbulanma**
- **əzələ ağrıları**
- **İshal**
- **yorğunluq**
- **aclıq hissi**
- **narahatlıq**
- **depressiya**
- **şəkər böhranları**
- **soyuqluq/titrəmə hissi**

Şəkərdən imtinanın mərhələləri

Yuxarıda göstərilən yan təsirlər sizi bir az qorxuda bilər. Ancaq unutmayın ki, bunlar müvəqqətidir və əksər insanlar üçün yalnız bir neçə gün işləyir. Şəkər kəsmək qərarına gəldikdə sizi gözləyən addımlar bunlardır:

## Motivasiyanın yüksək olduğu dövr

Şəkəri həyatınızdan tamamilə çıxarmaq niyyətindəsiniz.Motivasiyanızı heç vaxt itirməyin. Çünki növbəti şirin istəklərinizdə baş ağrıları və yorğunluqla mübarizə aparmaq üçün buna çox ehtiyacınız olacaq.

## Şirniyyat böhranları qapınızın ağzındadır

Şəkərdən imtina etdiyiniz zaman sizi gözləyən ilk şeylərdən biri şirniyyat istəyidir. Məhz buna görə də əlinizdə sağlam qəlyanaltılar saxlamağı unutmayın. Beləliklə, çox sevdiyiniz desertlərə qarşı arzunuza qarşı çıxmaqda çətinlik çəkməyəcəksiniz.

Semptomların ən yüksək olduğu dövr

Şəkərin kəsilməsi səbəbindən baş ağrısı, aclıq, titrəmə və hətta ishal ola və unlar ilk növbədə motivasiyanın itirilməsinə səbəb ola bilər. Bunun qarşısını almaq üçün həmişə sağlam qidalanma ilə daha yaxşı həyata addım atdığınızı unutmayın.

*Ardı Səh. 12*

# Şirniyyatdan anidən İMTİNA: QORXULU NƏTİCƏLƏR?



Əvvəli-Səh-11

### Vaxt keçdikcə daha yaxşı hiss etməyə başlayırsınız

İnanın, qeyd etdiyimiz problemlər getdikcə aradan qalxdıqca özünüzü çox yaxşı hiss edəcəksiniz. Şəkərdən imtina edən bir çox insanın razılaşdığı şeylər dərinin yaxşılaşması, zehni yayınmanın azalması və daha enerjili hisslərdir. Daha sağlam qidalanma tərzi və qida ilə zəngin qidalarla xroniki xəstəliklərə tutulma riskiniz azalacaq və ümumi bədən sağlamlığınızda yaxşılaşma müşahidə edəcəksiniz.

### Şirniyyat böhranının öhdəsindən gəlmək üçün yollar

- Daha çox lifli qidalar istehlak edin
- Daha çox protein alın
- Bol su içmək
- Probiyotikləri saxlayın
- Ürək üçün faydalı yağların qəbulunu artırın.



### Daha çox lifli qidalar istehlak edin

Lifli qidalar toxluq hissi yaradır, çünki onların həzm olunması daha uzun sürər. Beləcə şirin istəklərinizi daha asan aradan qaldıra bilərsiniz. Pəhriz lifi qan şəkəri səviyyənizi tarazlaşdıraraq qan şəkərinin qəfil düşməsinin qarşısını alır. Bu şəkildə şəkərdən imtina edərkən yaranan digər mənfi təsirlərdən asanlıqla xilas ola bilərsiniz.

Lifli qidalar arasında tərəvəzləri, qoz-fındıqları, bəzi toxumları və paxlalıları saymaq olar. Bunu edərkən qəbizlik kimi mümkün problemlərin qarşısını almaq üçün daha çox su içməyi unutmayın.

### Daha çox protein əldə edin

Aclıq və şirin istəkləri yatırmaq üçün zülal mütləqdir. Yüksək proteinli pəhriz aclıq hormonu olan qrelinin səviyyəsini azaltmaqla yanaşı, yuxarıda qeyd olunan problemlərin qarşısını alaraq qan şəkərinizin səviyyəsini tarazlaşdırmağa kömək edir.

Keyfiyyətli zülal qaynaqları arasında üzvi qırmızı ət, mərcimək, yabanı balıq, qara lobya, orqanik toyuq və yumurta kimi qidaları saymaq olar. Şirin istəkləri yatırtmaq üçün yüksək proteinli qəlyanaltıları əlinizdə saxlayın.

### Bol su içmək

Mədəniz böyüdükdə, sadəcə bir stəkan su ilə ondan qurtula biləcəyinizi görəcəksiniz. Ancaq susuzluq çox vaxt aclıqla qarışdırılır. Gün ərzində müntəzəm olaraq su içməklə aclıq və şirin istəklərin qarşısını alın.

Özünüzü konfet çubuğu və ya desert qarşısında tapdınız? Dərhal bir stəkan su için və yarım saat gözləyin. Aclığınız və ya susuzluğunuz keçdiyini görəcəksiniz.

### Probiyotikləri saxlayın

Probiyotiklərlə zəngin qidalar bağırsaqlarınızdakı faydalı bakteriyaları artırır. Bu, təkcə həzm və immun sistemlərinizə müsbət təsir göstərmir, həm də qan şəkərinizin səviyyəsini tarazlaşdırır və iştahı azaldır.

### Ürək dostu yağ qəbulunu artırın

Zülal və lif kimi yağlar da toxluq hissi verir və şirin istəklərin qarşısını alır. Yağların həzmi çox yavaş olduğu üçün uzun müddət toxluq hissi yaradır.

Təbii ki, bu o demək deyil ki, aclıq hisslərinin qarşısını almaq üçün yağlı burger və kartof qızartması ilə qidalanmalısınız. Avokado, qoz-fındıq, bəzi toxumlar, sızma zeytun yağı və kokos yağı kimi daha sağlam yağları seçin.

### "Şəkərsiz" həyatın öhdəsindən gəlməyin yolları

Daha sağlam həyata nail olmaq üçün mübarizə aparmalı və şəkəri kəsdiyiniz zaman yaranan problemlərə qarşı əsla təslim olmamalısınız. Bu prosesdə sizə kömək edəcək bəzi məsləhətlər:

Motivasiyanızı itirməyin: Əvvəlcə şəkərdən imtina etmək üçün səbəblərinizin siyahısını tərtib edin.

Yeməklərinizi və qəlyanaltılarınızı planlaşdırın: Həftəyə nə yeyəcəyinizi bilməklə başlamaq işlərin rəvan getməsini təmin edəcək.

Boş şirniyyatlar qutusunu boşaldın: Bəli, arzuladığınız o zibil qutusunu dərhal boşaltın. Əvəzində soyuducunuzu meyvə və tərəvəz kimi sağlam qəlyanaltılarla zənginləşdirmək sizə şirin istəkləri aradan qaldırmağa kömək edəcək.

Şəkərdən imtina etmək üçün həftəlik plan qurun: Şəkərinizi həyatınızdan tamamilə çıxarmağa hazırsınızmı? Bəziləri qəfil şəkəri kəsməyi seçsə də, şəkər qəbulunu addım-addım azaltmaq da təsirli bir üsuldur. Cəmi bir ay ərzində sizi artıq şəkər qəbulundan xilas edəcək yol xəritəsi:

**1-ci həftə:** Səhər qəhvənizdə təbii dadlandırıcılardan istifadə edərək başlayın.

**2-ci həftə:** Şəkərlə şirinləşdirilmiş içkiləri həyatınızdan tamamilə çıxarın. Buraya soda, şirə və limonad daxildir.

**3-cü həftə:** Şirniyyat və desertləri unudun. Bunun əvəzinə daha çox lif və protein olan meyvə və ya qəlyanaltıları seçin.

**4-cü həftə:** Dondurulmuş məhsullar əvəzinə emal edilməmiş tərəvəz, meyvə və tam taxıl məhsulları seçin

Şəkər əvəzinə istifadə edə biləcəyiniz sağlam alternativlərin siyahısı:

- saf bal
- kokos şəkəri
- ağcaqayın siropu

Şəkər qəbulunu azaltdığınız zaman qan şəkərinizin müvəqqəti olaraq aşağı düşməsi normaldır. Bununla belə, hipoqlikemiya əlamətləri (aşağı qan şəkəri) sağlamlıq üçün ciddi nəticələrə səbəb ola bilər. Bunun üçün mütəmadi olaraq yeməyə diqqət etməlisiniz. Fövqəladə hallar üçün əlinizdə bir parça meyvə saxlamaq yaxşı fikirdir.

Şəkərli diabetiniz varsa, pəhrizinizdə hər hansı bir dəyişiklik etməzdən əvvəl mütləq həkiminizlə məsləhətləşin.

Həmişə olduğu kimi, qızıl qayda bədənimizi dinləməkdir. Görürsünüz ki, qəflətən şəkərdən imtina etmək sizə ciddi narahatlıq yaradır. Bunun əvəzinə addım-addım kiçik dəyişikliklər etməklə daha uzunmüddətli nəticələr əldə edə bilərsiniz.



**Diyetoloq Ceyhunə Yusifova:** "Şirniyyat yeməmək bədənə bəzi mənfi təsirlərə səbəb ola bilər. Bunlara daxildir:

- Qanda şəkərin düşməsi: Şirniyyatlar tez həzm olunan karbohidratları ehtiva edir və qan şəkərini sürətlə yüksəldir. Şirniyyat yeməmək qanda şəkərin dalğalanmasına və düşməsinə səbəb ola bilər.

- Enerji çatışmazlığı: Desertlər bədənə sürətli enerji verir. Onları qeyri-kafi qəbul etmək, xüsusən də idman edənlərdə aşağı enerjiyə səbəb ola bilər.

- Əhval dəyişiklikləri: Şirniyyat istehlakı qan şəkərinə təsir edərək əhval-ruhiyyəyə müsbət təsir edə bilər. Şirniyyat yeməmək bəzi insanlarda gərginlik, əsəbilik və ya narahatlığa səbəb ola bilər.

Digər tərəfdən, balanslı bir pəhriz üçün həddindən artıq şirin istehlakdan qaçınmaq lazımdır. Sağlam bir pəhrizdə şirniyyatlar ölçülü olmalidir.Sağlıqlı məhsullardan şirniyyatlar hazırlanmalıdır.

### Məsələn

Meyvəli desertlər: Meyvələrdən hazırlanmış kokteyllər, kompot və ya meyvə salatı kimi desertlər sağlam seçimdir.

- Qatıq əsaslı desertlər: Sadə qatıq, süzülmüş qatıq və ya yunan üslublu qatıqla hazırlanmış desertləri sınaya bilərsiniz.

- Fındıq/şokolad birləşməsi: Kiçik bir hissə tünd şokolad və qoz və badam kimi qoz-fındıq gözəl desert seçimi ola bilər.

Xurma badam tünd şokoladdan sağlıqlı desert hazirlaya bilərsiniz.

- Ballı desertlər: Çox taxıllı müsli, yulaf əzməsi və ya tam taxıllı pancakelərə bir az bal əlavə etmək sağlam desert seçimi təklif edir.

- Evdə hazırlanmış peçenye: Ev şəraitində sağlam məhsullarla hazırlanmış quru meyvə, darçınlı və ya qozlu peçenyelər

Xüsusilə də qadınlarda menstrual dövrdə şirniyyat ehtiyacı daha artır. Və bu sadaladığım diyetik desertlərdən hazirlayib yeyə bilərlər".

***Ayşən Vəli***

*Son zamanlar ABŞ və Aİ getdikcə Rusiya və Çini Mərkəzi Asiyadan sıxışdırıb çıxarmağa çalışır. Bu barədə Rusiyanın "İzvestiya" nəşri yazır.*

# Mərkəzi Asiya uğrunda ABŞ-Aİ və RF-ÇXR arasında döyüş güclənir







ABŞ-ın Qlobal İnfrastruktur və İnvestisiya üzrə Tərəfdaşlıq Proqramının Xüsusi Koordinatoru vəzifəsini müvəqqəti əvəz edən Helaine Matz G7 ölkələrinin regionda infrastruktur layihələrinin inkişafına və Mərkəzi Asiya ölkələrində iş yerlərinin yaradılması üçün 200 milyard dollara qədər sərmayə qoymağa hazır olduğunu bəyan edib.

"Biz Cənubi və Mərkəzi Asiyada mühüm mübarizə aparırıq. Bu, Çinlə iqtisadi rəqabət aparmaq, Rusiya və Çindən gələn informasiyalara qarşı çıxmaq və terror fəaliyyətinin qarşısını almaq üçün mübarizədir",- ABŞ dövlət katibinin Cənubi və Mərkəzi Asiya məsələləri üzrə köməkçisi Donald Lu deyib. Onun sözlərinə görə, Mərkəzi Asiya regionu ABŞ-ın Çin və Rusiya ilə rəqabəti üçün xüsusilə mühüm arenaya çevrilib. O, Qazaxıstanı nümunə kimi göstərərək, Vaşinqtonun "yerli mediaya maliyyə dəstəyinin" "faktlara əsaslanan məzmunun" yaradılmasına kömək edəcəyini, həmçinin "Rusiya və digər ölkələrin müdaxilə dərəcəsini azaldacağını" vurğulayıb. Xüsusilə, Donald Lu-nun qeyd etdiyi kimi, yardım "Rusiya mediasına alternativ yaratmaq" məqsədi daşıyacaq.

Bundan əlavə, Konqresin Nümayəndələr Palatasının Xarici Əlaqələr Komitəsində keçirilən dinləmələrdə o bildirib ki, Rusiyadan deportasiya edilmiş əmək miqrantları üçün proqram hazırlanıb və onun məqsədi Mərkəzi Asiya ölkələrində iş yerlərinin yaradılmasıdır. Belə ki, sonradan qayıdan vətəndaşlar öz vətənlərində məşğul olacaqlar. Lu qeyd edib ki, ABŞ prezidenti Cozef Bayden administrasiyası Konqresdən Mərkəzi Asiya dövlətləri, xüsusilə Rusiya və Çinin artan təsirini azaltmaq üçün 220,7 milyon dollar istəyib.

ABŞ-ın Qlobal İnfrastruktur və İnvestisiya Tərəfdaşlığı Proqramı üzrə Xüsusi Koordinatoru vəzifəsini müvəqqəti əvəz edən Helaine Matz Özbəkistan və Qazaxıstana səfər edib, burada potensial infrastruktur layihələri və onların maliyyələşdirilməsini müzakirə etmək üçün yerli hökumət rəsmiləri və özəl sektor tərəfdaşları ilə görüşüb. Layihələr nadir torpaq metallarının hasilatı və emalı, nəqliyyat və logistika, kənd təsərrüfatı istehsalı və təmiz enerji kimi sahələrə aiddir.

Son zamanlar ABŞ və Aİ Çindən konteyner dəmir yolu ilə yükdaşıma şəbəkələrini Mərkəzi Asiya, Qafqaz, Türkiyə və Şərqi Avropa vasitəsilə Aİ ölkələrinə birləşdirən Transxəzər Beynəlxalq Nəqliyyat Dəhlizinə (Orta Dəhliz) marağı artır. G7 ölkələri bu yaxınlarda 2027-ci ilə qədər inkişaf etməkdə olan ölkələrə 600 milyard dollar sərmayə qoymağa razılaşıb ki, bunun da üçdə biri Mərkəzi Asiya üçün nəzərdə tutulub. ABŞ-ın region ölkələrinə aktiv sərmayə qoyması halında, bu dövlətlər və Rusiya Federasiyası arasında tranzit və infrastruktur qarşılıqlı fəaliyyəti minimuma enəcək, beləliklə, Moskva xeyli miqdarda yük daşımalarını və qarşılıqlı fəaliyyətin digər variantlarını itirmək riski ilə üzləşir. Eyni zamanda, Özbəkistan və Qazaxıstanın infrastrukturunun inkişafı Çinin xeyrinə olacaq, "Kəmərlər və Yolllar" siyasətinin həyata keçirilməsi üçün yeni imkanlar yaradacaq ki, bu da Cənubi Qafqaz dövlətləri üçün faydalıdır.

Beləliklə, Mərkəzi Asiya və Cənubi Qafqazda iqtisadi təsir uğrunda Rusiya Federasiyası ilə Qərb arasında rəqabət getdikcə güclənir. Açığı, Qərb ölkələri ikinci dərəcəli sanksiyaların hədələrinin az təsir etdiyini başa düşdülər və buna görə də yanaşmalarını dəyişməyə qərar verdilər, region dövlətlərini ÇXR və Rusiya Federasiyasından mümkün qədər uzaqlaşdırmağa çalışırlar.

ABŞ və Aİ Mərkəzi Asiya ölkələrinin Rusiya və Çinlə qarşılıqlı fəaliyyətinə bir növ alternativ təklif edir, lakin Mərkəzi Asiya ölkələrinin ABŞ ilə əməkdaşlığının konkret olaraq necə həyata keçiriləcəyi tam aydın deyil. Ola bilsin ki, Qərb ölkələrinin elan olunan vəsaitin alınması üçün şərti Rusiya və Çinlə sıx əməkdaşlıqdan imtina etmək ola bilər.

Hazırda Mərkəzi Asiya ölkələrində Trans-Əfqan Dəmir Yolu, Türkmənistan üçün TAPI qaz kəməri, Qırğızıstan vasitəsilə Çindən Özbəkistana dəmir yolu kimi infrastruktur layihələri gündəmdədir. Və belə hesab edilir ki, bu layihələrin əksəriyyəti Vaşinqtonun maraqlarına uyğun deyil.

Maraqlıdır, Qərb və Rusiya-Çin arasında Orta Asiya üçün bu rəqabət hansı nəticələrə gətirib çıxara bilər? Bütün bunlar həm Çin, həm də Avropanın bir-birləri arasında daha çox mal axını təmin etmək üçün Orta Dəhliz layihəsinin həyata keçirilməsində maraqlı olması faktına necə uyğun gəlir?

Bu barədə xarici ekspertlər fikirlərini Caliber.Az-a açıqlayıblar. Rəyləri oxucularımıza təqdim edirik.

## ƏCNƏBİ EKSPERTLƏRİN RƏYİ





Rusiyalı sosioloq, politoloq, Postindustrial Cəmiyyətin Tədqiqatları Mərkəzinin rəhbəri Vladislav İnozemtsev hesab edir ki, bu, çox dərin mövzudur.

"Mən bu mövzu üzərində işləyirəm, keçən il Fransada Mərkəzi Asiya məsələsi və orada amerikalıların, avropalıların və çinlilərin təsiri ilə bağlı kifayət qədər böyük hesabatım var idi. Mən belə deyərdim: bu planlar yaxşı görünür, lakin, bir qayda olaraq, son illərdə postsovet dövlətləri ilə bağlı Qərbin əksər ideyaları baş tutmayıb. Sadəcə ona görə ki, əməkdaşlıq proqramlarının gözəl təqdimatından sonra real konkret addımlar o qədər də effektli olmadı. Və demək olar ki, heç vaxt böyük investisiyalar tam şəkildə ayrılıb istifadə olunmayıb. Məsələ burasındadır ki, Avropada, ən azı, belə bir fikir var ki, Mərkəzi Asiya, xüsusən də Rusiya ilə Çin arasında, iki güc mərkəzi arasındakı region, təbii olaraq Qərbə doğru çəkilməli olan bir regiondur",- deyə tədqiqatçı bildirir.

O bildirib ki, Qazaxıstan son vaxtlar ixracının yarıdan çoxunu Avropa İttifaqına göndərib.

"Və Qərb, mənim fikrimcə, çox rahatlaşıb, çünki strateji baxımdan son dərəcə vacib olan bu ölkələr üçün həm Rusiya, həm də Çinlə rəqabət aparmaq lazım olduğunu başa düşmür. Ona görə də belə bəyanatları kifayət qədər sakit qəbul edirəm. Onların ciddi nəticə verəcəyinə inanmıram. Mənə elə gəlir ki, Çinin özü regionda bu cür investisiya layihələri ilə həddən artıq yüklənməyincə və ya bu regionda mövcudluğuna görə Rusiya ilə Çin arasında münaqişə yarananа qədər, Qərb indiki yanaşmaları ilə hələlik strateji, mühüm rol oynaya bilməz. Bu, məsələn, Fransadan Qazaxıstanda zənginləşdirmə fabrikləri yaratmaq niyyəti ilə bağlı heç vaxt həyata keçirilməyən vədlərə də aiddir. Bu, Mərkəzi Asiya ölkələrinin ordularının hələ də Sovet və Rusiya silahları ilə silahlanmasına da aiddir. Yəni, bu halda Qərb tərəfində çəkişmə çox ləng gedir. Və bu cür təşəbbüslər yalnız vəziyyət həqiqətən qızışdıqda, Çinin bu regionda qalib gəldiyi tam aydınlaşdıqda yaranır. Ona görə də düşünürəm ki, bu, söhbətlərin növbəti dalğasıdır. Dərhal səngiyəcəyini deyə bilmərəm- müəyyən nəticələr əldə olunacaq. Amma ciddi dəyişikliyin baş verməsi ehtimalı azdır",- iqtisadçı hesab edir.

Buna baxmayaraq, ekspert düşünür ki, təəccüblü olan bütün regionda, ən azı Qazaxıstanda (bir qədər də Özbəkistanda) Qərbə rəğbətin çox böyük olduğunu düşünürlər.

"Onlar həqiqətən Qərb ölkələrini, tutaq ki, Rusiya və yüksələn Çin fonunda mühüm oyunçu kimi görürlər və buna görə də Qərbin diqqəti onlar üçün çox vacibdir. Ancaq bir daha təkrar edirəm, mənim fikrimcə, bu, hələ də kifayət deyil",- İnozemtsev yekunlaşdırır.

Qırğızıstanlı politoloq, regional təhlükəsizlik üzrə ekspert, keçmiş diplomat Mars Sariyev öz növbəsində bildirib ki, Mərkəzi Asiya uğrunda Qərb və Rusiya və Çin arasında rəqabət güclənir.

"ABŞ və Avropa İttifaqı Mərkəzi Asiyaya dəstək üçün 200 milyard dollar dəyərində çox dadlı layihələr təklif edir. Bu, ilk növbədə, Transxəzər dəhlizidir. Hesab edirəm ki, Çin-Qırğızıstan-Özbəkistan dəmir yolu da eyni layihədə dəstək tapacaq. Ona görə də bunlar Mərkəzi Asiya ölkələri üçün çox yaxşı, sərfəli təkliflərdir", - ekspert hesab edir. Təbii ki, bu, Mərkəzi Asiya ölkələri ilə Rusiya arasında münasibətlərdə gərginlik yaradır, o deyir.

"Ancaq Çin Xalq Respublikasının bu layihələrə xüsusi müdaxilə edəcəyini düşünmürəm, çünki bu, Pekinə sərfəlidir. Çindən Qırğızıstandan, Özbəkistandan Avropaya gedən orta yol ÇXR üçün əlverişlidir. Ona görə də bu layihələrə çox da müxalifət olmayacaq; çünki bu, Çin üçün faydalıdır.

Amma Rusiya anlayır ki, bu layihələrlə Mərkəzi Asiya əslində Qərbin çətiri altına gedə bilər və bu baxımdan, əlbəttə ki, Moskvanın bu variant xoşuna gəlməyəcək. Elə bu günlərdə biz Cozep Borrelin Mərkəzi Asiya ölkələrinə səfərini və 5 Mərkəzi Asiya ölkəsi və Aİ-nin sammitini müşahidə etdik. Ümumiyyətlə, çox vacib məsələlər bağlı qapılar arxasında müzakirə olunacaq. 5+1, yeni Orta Asiya-Yaponiya sammiti də nəzərdə tutulub. Orada Mərkəzi Asiya ölkələri üçün çox faydalı olan iqtisadi layihələrə də baxılacaq. Ona görə də düşünürəm ki, bu çətin vəziyyətdə Mərkəzi Asiya ölkələri Qərbin bu təkliflərini və maliyyə layihələrini qəbul etməyi gücləndirəcək. Bu, onlar üçün çox böyük məbləğdir. Bu, onlara infrastrukturu inkişaf etdirməyə və dünya bazarlarına çıxmağa kömək edəcək",- keçmiş diplomat vəziyyəti açıqlayıb.

***Tərcümə - Elçin Bayramlı***



Elçin Bayramlı

## Erkən fahişəliyə qarşı niyə mübarizə aparılmır?

***Media və qeyri-hökumət təşkilatları erkən fahişəliyə qarşı mübarizə əvəzinə "erkən" evliliyə qarşı mübarizə aparmaqla məşğuldur***

Azərbaycan xalqının minillərlə formalaşmış mənəvi dəyərlərini qərbdən yeridilən saxta dəyərlərlə əvəzləmək prosesi davam edir. Avropanın bizə yeritdiyi qanuna qalsa, tam formalaşmış, hər cəhətdən yetkin 17 yaşlı qız ailə qura bilməz, amma 16 yaşlı körpə qızcığaz azad şəkildə fahişəlik edə bilər. Qlobal mərkəzlərdən idarə olunan jurnalistlər, ictimai təşkuilatlar, psixoloqların əli ilə "Erkən evliliyə qarşı mübarizə" adı altında aparılan və milli ailə sisteminin dağıdılmasına hesablanmış əməliyyat müvəffəqiyyətlə başa çatmaq üzrədir.

Erkən evlilik faciə deyil, bunu minillərin təcrübəsində görmüşük, amma erkən fahişəlik faciədir və fəlakətdir- bunu da son illərdə daha aydın görürük. Erkən evlilik dediyimiz yaşlar (16-17) dünyanın əksər ölkələrində (hətta dünyaya demonkratiya ixrac edən ABŞ-da da) rəsmi evlənmə yaşıdır. İnsanı Yaradanın ona hansı yaşda ata, ana olmaq qabiliyyəti verdiyini elm də təsdiq edir, biz də bilirik. Amma bəziləri çıxıb deyir ki, xeyr, Yaradan da səhv edir, elm də, biz hamıdan ağıllıyıq. Biz nə deyriksə, elə etməlisiniz.

Erkən evlilikdən əvvəl erkən fahişəliyə qarşı mübarizə aparmaq lazımdır. Uzun illərdir ki, qeyri-hökumət təşkilatlarının mənəvi mövzularda həyata keçirdikləri layihələri izləyirəm- hamısı "qadın azadlığı", "məişət zorakılığı, "erkən evliliyə qarşı mübarizə", "gender bərabərliyi" adı altında gedir.

Ancaq hələ də erkən fahişəliyə qarşı bir layihə həyata keçirən görməmişəm. Halbuki, azyaşlı qızların cinsi istismarı, qadın alveri obyektinə çevrilməsi haqda faktların sayı hesabı yoxdur. Fahişəxanalarda 13-14 yaşlı qızların pul müqabilində bədənlərini satdığı haqda mediada və sosial şəbəkələrlə mütamadi olaraq məlumatlar yayılır. İnternetdə hətta azyaşlı və yeniyetmə qızlar açıq şəkildə bədənlərini satışa qoyurlar, lakin nə cəmiyyətdən buna reaksiya var, nə dövlətdən. Amma nənəsi, anası 15-16 yaşda ailə qurub xoşbəxt ömür sürmüş bir qızın özü 17 yaşda ailə qurmaq istəyəndə bir qrup kütlə düşür ortalığa ki, vay qoymayın, qanun pozulmuş, dəhşətli cinayət baş vermişdir. Lakin elə həmin qız 16 yaşında oteldə ərəblərlə cinsi münasibətdə tutulsa nə bu kütlə narahat olur, nə də qanun pozulur. Dəhşətin fərqindəsinizmi?

Bəli, qızların zorla ərə verilməsi düzgün deyil və buna qarşı mübarizə aparılmalıdır. Lakin 17 yaşını keçmiş, fiziki və psixoloji cəhətdən evlənməyə, valideyn olmağa hazır olan, öz istəyi ilə ailə qurmaq istəyən insanı hansı əsasla bundan məhrum etmək olar? Bu 18 yaş senzi hansı bioloji qanuna, hansı məntiqə, hansı ədalətə əsaslanır? Heç bir cavab yoxdur, ola da bilməz.

Faktiki olaraq erkən evliliyə qarşı mübarizə adı altında gənclərin mümkün qədər gec evlənməsi təbliğ olunur, hətta açıq deyilir ki, heç evlənmək lazım deyil. Bu təbliğatın nəticəsidir ki, evlilik halları kəskin azalıb, boşanmalar isə kəskin artıb.

İş o yerə gəlib ki, 18-20 yaşda gənclərin evlənməsinə belə bu "abrazavonski" zombilər pis baxırlar. Ümumdünya Səhiyyə Təşkilatı qızların ideal evlənmə yaşının 18-20, oğlanlarda isə 20-22 yaş olduğunu bəyan edir. Amma elm də, bioloji qanunlar da, insanın instruksiyası da boş şeydir. Əsas qlobal mənəvi terrorun aparılmasıdır. Ona görə də, gənclərin "təhsil və karyera" adı altında mümkün qədər gec (30-35 yaşda) evlənməsinin təşviqi, "qadın azadlığı" adı altında boşanmaların təbliğat kampaniyası məşallah nəhəng miqyasda davam edir. Artıq 50 faizə çatmış boşanmalarla dünya liderinə çevrilmişik. Dünyanın ən möhkəm ailə institutu cəmi 20-30 ildə ən dağılmış ailə institutuna döndərildi.

Abortlar üzrə dünya liderlərindən biriyik. Son 1 ildə uşaq doğumu 100% (!) azalıb- yəni 2 dəfə. Cinsi azlıqların sayı sürətlə çoxalır. "Öz cinsimi hələ təyin etməmişəm" deyən yeniyetmələr meydana gəlir. Xəyanət halları, namus cinayətləri sürətlə artır. Əxlaqsızlıq getdikcə kütləviləşir. Kriminal ünsürlər artır. Mənəvi deqradasiya kulminasiyaya çatır. Beləliklə, bioloji qanunlar da pozulur, insanın təməl hüquqları da, mənəvi dəyərlər də. Kütləvi informasiya və təbliğat vasitələri ilə tam bir satanizm ideologiyası yeridilir. Qlobal psixotron terror davam edir. Müasirlik adı altında sizə qarşı təcavüz prosesi aparılır. Təslim olmayın. Özünüzü bu terrordan qoruyun. İmkan olsa öz millətinizi də.

# DOST xidmətlərindən istifadə zamanı şəxsiyyət vəsiqəsini təqdim etmək məcburi deyil

***DOST mərkəzlərində xidmətlərdən istifadə zamanı şəxsiyyət vəsiqəsini təqdim etmək artıq məcburi deyil. DOST Agentliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən SİA-ya verilən məlumata görə, bu həftədən etibarən vətəndaşların tələb olunan şəxsiyyət vəsiqəsi məlumatlarını "mygov" tətbiqi vasitəsilə təqdim etməsi fiziki şəxsiyyət vəsiqəsinin təqdim edilməsinə bərabər tutulur. Belə ki, vətəndaş "mygov" tətbiqinə daxil olaraq rəqəmsal şəxsiyyət vəsiqəsi məlumatlarını müxtəlif üsullarla qarşı tərəflə bölüşə bilər.***




Bununla bağlı Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi tərəfindən "Rəqəmsal şəxsiyyət vəsiqəsi"nin "mygov" portalı üzərindən verifikasiyadan keçirilməsinə dair təlimat hazırlanıb. Təlimata əsasən, vətəndaş "mygov" tətbiqində qeydiyyatdan keçibsə, yalnız smartfonla DOST Mərkəzinə yaxınlaşaraq xidmətlərdən istifadə edə bilər. Bunun üçün qəbul masalarında şəxsiyyət vəsiqəsi əvəzinə tətbiqdəki QR kodu göstərmək kifayətdir.

Qeyd edək ki, bu yenilik Azərbaycan Prezidentinin 16 iyul 2024-cü il tarixində imzaladığı Fərman nəticəsində mümkün olub.

# Hamama girəndə, Votsapa yaz!

**FELYETON**



Deyir, Bakı şəhərində su yoxdur, bu səbəbdən də fasilələrlə verilir. Elə yerlər də var ki, heç ümumiyyətlə, günlərlə verilmir. Hələ bu səbəbdən son vaxtlar camaatın hamamda köpüklü qaldığı da dəlil kimi göstərilir. Bunu da aid mütəxəssislər belə izah edir ki, bu şəhərdə hamı sudan eyni vaxtda istifadə edir. Hamı bir anda su kranlarını açır, su da axır, ona görə də çatmır.

Deyirəm, insanlar durub nəyi özlərinə dərd edirlər ey. İndiki müasir dövrdə hansı dərdə çarə yoxdur ki, sən durub hələ suyun az olmasını özünə dərd edəsən...

Əvvəlki dövr deyil ki, durub su üçün müsəlləyə çıxasan. Yəni çıxanda nə olar? Qədim adətləri yaşatmağın nəyi pisdir ki?.. Lakin müsəllə üçün dağ-daş olmalıdır. Metrlərlə hündür yer olmalıdır ki, səsin Allaha çata bilsin. Bu səbəbdən də bakılılar müsəlləyə çıxa bilməzlər. Çünki Bakıda dağ yoxdur, səsləri də Allaha çata bilməz.

Bəs nə etməli ki, bu su məsələsini həll etməli? Burada adamın bir az da gülməyi gəlir. Deyirsən ki, gör camaat durub nəyi düşünür. Bu ki, çarəsi olmayan məsələ deyil.

Millətin hamısı sosial şəbəkələrdə deyil? Hərənin Votsapda ən azından bir neçə qrupu var: valideynlər qrupu, sinif yoldaşları qrupu, tələbə yoldaşları qrupu, rəfiqələr qrupu, dostlar qrupu, iş yoldaşları qrupu, oğlanlar qrupu, qızlar qrupu, yaxın qohumlar qrupu, uzaq qohumlar qrupu, "onlar" qrupu, "bunlar" qrupu və sair və ilaxır.

Qoy olsun bu qruplardan biri də su qrupu da. Nədir ki? Qrup rəhbəri hamını qeyd edəcək, vəssalam. Oldu yüz ilin qrupu. İşdən gəldin, əlini yumaq istəyəndə qrupa bir kəlmə yaz ki, suyu açdım. Çaydanı doldurmaq istəyəndə qrupa yaz ki, suyu açdım. Bir stəkan su içmək istəyəndə, ölüm deyil ki, qrupa yaz ki, suyu açdım.



Məsələn, analar uşağın bezini dəyişir, baxır ki, vay, uşaq işləri korlayıb, bunu yumaq lazımdır. Qrupa bir kəlmə yazsın ki, suyu açıram. O biri analar da uşaqları bulaşıq bezin içərisində bir qədər gözlətsinlər də, nə olacaq ki. Ölümə çarə yoxdur, vallah, hər şeyə çarə var...

Əsas məsələ, ay yuyunmaq istəyən, hamama girmək istəyirsən, bir kəlmə qrupa yaz, get, çim də. Nə olacaq ki? Qoy qrupdakılar da 20-30 dəqiqə sonra hamama girsin. Belə olanda, nə sən köpüklü qalarsan, nə də digər şəhər sakinləri.

İndiki deyirlər ki, suyu hamınız eyni zamanda açırsınız, çatmır, ta elə bilirəm ki, buna bu qrup məsələsindən gözəl çarə ola bilməz. Hamama girdin, suyu açdın, Votsapa gir, qrupa yaz. Onsuz da günümüz onlayn olmaqdır, gün boyu oradayıq. Bunun üçün aid qurumları narahat etməyə, ay, su niyə yoxdur, niyə az gəlir, nə üçün axşamdan-axşama verilir, nə üçün saatla verilir, nə üçün heç gəlmir deməyə, yayın bu isti günlərində onları narahat etməyə dəyərmi?

Hamama girdin, suyu açdın, Votsapa gir, qrupa yaz, vəssalam.

***Mətanət Məmmədova***

# Qələbəlik süfrələrdən virtual əsirliyə gedən yol

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb.*



***Sürətlə inkişaf edən texnologiya və texnoloji alətlərə sahib olmaq həvəsi həyatımızı asanlaşdırmaqla yanaşı həm də sosial həyatımıza zərər verir. İndi ənənəvi üsullar yerinə virtual yollar köməyimizə yetir, elektron ticarət, elektron hökumət, elektron görüşlər vaxt baxımından bizə fayda verir. Amma həm də real ünsiyyət imkanımızı əlimizdən alır. Virtual platforma maddi-fiziki ehtiyaclarımızı asanlaşdırır, lakin mənəvi-psixoloji baxımdan fayda vermir, əksinə zərər verir. İnsan münasibətləri istiqamətini dəyişməyə başladı, real görüşlər minimuma endi, virtual görüşlər sürətlə artdı.***









Dünya sürətli sosial-iqtisadi dəyişiklik prosesini yaşadığı bir vaxtda elm və texnologiya da durmadan irəliləyir. Bu sürətli dəyişikliyin nəticələri bir çox aspektlərdə cəmiyyətlərə, sosial münasibətlər anlayışına təsir edir. Dəyişiklik çoxşaxəli təsirə malik olduğundan cəmiyyətin bir çox istiqamətində hiss olunur.

Üz-üzə ünsiyyətdən virtuala, kağızdan rəqəmsal sənədlərə, uzun müddət sərf edərək iş müraciəti etmək yerinə online müraciətlər kimi bir çox dəyişikliklər virtual dünyanın məhsuludur. Bəzisi faydalıdır, online konsultasiyalar, iş görüşləri və ya sənədləşmələr üçün. Bəzisi isə zərər verir, real ünsiyyəti unudub virtual münasibətlərə keçirik deyə. Virtuallaşmanın tarixi inkişafı, yəni internetin həyatımıza girdikdən bu günədək olan inkişafı, insanlığın məruz qaldığı mənəvi böhran da adlandırılır. Çünki həyatımız asanlaşdırdığı qədər sosial çevrəmizlə münasibətlərimizi virtuallaşdırmağa da o səbəb olur.

Rəqəmsal sistemə keçməzdən əvvəl ünsiyyət qurmaq üçün müəyyən vaxta ehtiyacımız var idi, əvvəl görüş təyin edirdik, sonra qarşılıqlı, real olaraq görüşür, söhbətləşir, çay içir, yemək yeyir, beləcə sosiallaşırdıq. Həyat normal axarında idi, tələsmirdik, qaçmırdıq, yorulmurduq. Lakin indi hər şeyi virtuallaşdırmışıq, ən doğmamızla belə internet vasitəsi ilə ünsiyyət saxlayırıq. İnternet bizə bir neçə saniyə ərzində dünyanın istənilən nöqtəsindəki tanışımızla ünsiyyət quramağımıza, mesajla, adi zənglə, görüntülü zənglə və s. üsullarla danışmağımıza imkan yaradır. Bu, əlbəttə, yaxşıdır. Amma qonşuluğumuzda yaşayan dostumuza, valideynimizə baş çəkmək yerinə video-zəng etmək də internetin "hədiyyəsidir".

Texnologiya o qədər sürətlə inkişaf edir ki bəzən özümüz də onun sürətinə yetişə bilmirik. Doğrudur, sosial şəbəkələr həyatımıza olduqca rahatlıq gətirdi, həm fikrimizi çatdırmaq, həm yeni fikirlərlə tanış olmaq üçün əlverişli ünsiyyət vasitəsidir. İnsanlar sosiallaşma ehtiyaclarını və real həyatdakı ünsiyyətlərini rəqəmsal platformalara köçürdükdən sonra dostluq, qohumluq əlaqələri də müstəvi dəyişir. Real həyatdakı münasibətlərimiz indi bir-bir sosial platformalara keçir. Başqa sözlə desək sosiallaşmaq da zamanla rəqəmsallaşdı.

XXI əsrdə texnologiyanin inanılmaz sürətli inkişafı bizə müsbət təsiri ilə yanaşı mənfi təsirini də nümayiş etdirdi. İnternet sayəsində tanınmış kitabxanaların elektron məhsullarını gözdən keçiririk, tapa bilmədiyimiz kitabların elektron versiyasını əldə edirik, uzaqda olan yaxınlarımızı canlı görə bilirik, yeni dostluqlar və münasibətlər əldə edə bilirik. Bütün bunlar müsbət xüsusiyyətlərdir, yaxşı bəs o zaman internetin bizə verdiyi mənfi tərəflər hansılardır?

Bir vaxtlar insanlar üzbəüz ünsiyyətdən zövq alırdılar, amma indi virtual ünsiyyət daha çox dəbdədir. Ofisdə bir-biri ilə ünsiyyət qurmağa "ərincəklik" edən iş yoldaşları bir-birinə sözü olanda "facebook"dan mesaj yazırlar. Bir çox insan virtual məkanda hisslərini daha yaxşı ifadə etdiklərini deyirlər. Mütəxəssislər isə bunu ünsiyyət problemi ilə əlaqələndirirlər. Hətta bəzi sosioloqlar internet vasitəsi ilə ünsiyyət qurmanın fərdin real şəxsi ünsiyyət qurmasındakı ən böyük səдд olduğunu düşünürlər.

Pandemiya illərində təhsilin online sistemə keçirilməsi, iş yerlərinin bir çoxunun online olaraq fəaliyyət göstərməsi iş və təhsil məhsuldarlığını azaltdı. Xüsusilə virtual dərs alan abituriyentlərin imtahan göstəriciləri əvvəlki illərdə normal təhsil sistemi ilə dərs alan abituriyentlərin nəticələri ilə müqayisə edildikdə itirdiklərimizin daha çox olduğunu müşahidə etdik. Özümüzü virusdan qoruduğumz o qapanma müddətində sosial həyatımız, ünsiyyət bacarımız, təhsilimiz də deformasiyaya uğradı. Milli dəyərlərimizdən hesab etdiyimiz o böyük süfrələr, qonaqlı-qaralı evlərin sayı azaldı, hər kəs əlindəki ekranın əsirinə çevrildi. Bizi özünün böyük, vahiməli toruna salan virtual dünya hər gün üzərimizdə bir az da çox hakimiyyət qurur.

**Lalə Mehralı**

SON SƏHİFƏ
SƏS
24 avqust
2024-cü il


“SƏS” qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Hasarların tikintisinə görə icazə qaydaları necədir?



“Mülki Məcəllənin və Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə əsasən, bir qayda olaraq, tikintiyə icazə alınmalı və səlahiyyətindən asılı olaraq müvafiq səlahiyyətli qurum tikintiyə icazə verməlidir”. Bu sözləri SİA-ya açıqlamasında



AYDINLIQ GƏTİRİLDİ

Hüquqi-Sosial Yardım və Maarifləndirmə İctimai Birliyinin sədri Fariz Əkbərov deyib. Fariz Əkbərov sözlərinə belə davam edib: “Hasarların tikintisinə dair tələblər bunlardır: Hər bir tikinti işi müəyyən qanun çərçivəsində həyata keçirildiyi kimi, hasar tikmək də qanunla tənzimlənir. Belə ki, Azərbaycan Respublikasinin Şəhərsalma və Tikinti Məcəlləsinin 73-cü maddəsinə əsasən müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş hallar istisna olmaqla, hasarların hündürlüyü 2 metr 20 santimetrdən çox olmamalıdır.

• İki yanaşı torpaq sahələrinin səviyyələri müxtəlif olduqda, hasarın hündürlüyünün istinad nöqtəsi qismində torpaq sahəsinin ən yuxarı səviyyəsi qəbul edilir.

• Mühəndis-kommunikasiya təminatı xətlərinin çəkilməsi üçün başqa əlverişli həll yollarının olmadığı təqdirdə, qonşu mühəndis-kommunikasiya təminatı xətlərinin öz sahəsindən keçməsinə icazə verməlidir.

• Qonşu torpaq sahələrinin şaquli planlaşdırılması zamanı atmosfer yağıntılarının və suvarma sularının bir qonşunun torpağından digərinə axmaması üçün müvafiq tədbirlər görülməlidir. Atmosfer yağıntılarından yaranan suların sahənin relyef mürəkkəbliyi ilə əlaqədar qonşu ərazilərdən keçməklə kənarlaşdırılması şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş qaydada həyata keçirilir”.

***Ayşən Vəli***

# Məşhur aktyorun başı dərddədir - aktrisaya təcavüzə görə ittiham olunur



***Fransız aktyor Jerar Depardyenin başı dərddən ayılmır. Bu dəfə Paris prokurorları aktyorun aktrisa Şarlotta Arnuya qarşı təcavüz iddiası ilə bağlı mühakimə olunmasını tələb ediblər. Bu barədə "Variety" nəşri məlumat yayıb. Hazırda istintaq hakimi prosesl bağlı qərar verməlidir.***

Qeyd edək ki, aktyora qarşı ittihamlar ilk dəfə 2018-ci ildə irəli sürülüb. Aktrisanın iddialarına görə, o, avqust ayında aktyorun evində keçirilən tamaşanın məşqləri zamanı Depardye tərəfindən iki dəfə təcavüzə məruz qalıb. Depardye isə ittihamları rədd edir.

# “Nar” “YAŞAT” Fondunun şəhid övladları üçün təşkil etdiyi düşərgəyə dəstək olub

***Sərfəli qiymətləri və müştərilərə uyğun təklifləri ilə tanınan operator “Nar” özünün korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində “YAŞAT” Fondunun yeniyetmələr üçün təşkil etdiyi düşərgəsinə dəstək olub. Naxçıvan Muxtar Respublikası ərazisində baş tutan düşərgəyə Azərbaycan və Türkiyədən 15-17 yaş arası, 50-dək yeniyetmə şəhid övladları dəvət edilib.***

Layihənin məqsədi ölkələrimizin ərazi bütövlüyü uğrunda həyatından keçən şəhidlərimizin əmanəti sayılan övladlarına mənalı və öyrədici istirahət imkanı yaratmaq və onları ölkəmizin tarixi məkanları və füsunkar təbiəti ilə tanış etməkdir.




21-24 avqust tarixlərini əhatə edən layihə çərçivəsində Əlincə qalasının və Batabat gölünün ziyarəti, həmçinin Naxçıvan qalasına, Əcəmi seyrangahına, o cümlədən, Möminə Xatun türbəsinə ekskursiyası nəzərdə tutulur.

“Nar”ın KSM strategiyası və həyata keçirdiyi sosial layihələr haqqında ətraflı məlumatı operatorun rəsmi saytından (nar.az) əldə edə bilərsiniz. “Nar” hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. “Nar” son 5 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.


Baş redaktor:
Bəhruz Quliyev

Ünvanımız:
Bakı şəhəri,
Üzeyir Hacıbəyli küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
Tel: 598-33-90
Faks: 493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

Tiraj: 2700